16 sentyabr 2022 №68 (1941) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Azərbaycan və Türkiyə daim bir-birinin yanındadır



Sentyabrın 15-də Özbəkistanın Səmərqənd şəhərində Şanxay Əməkdaşlıq Təşkilatının sammiti çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın görüşü olub.

Rəcəb Tayyib Ərdoğan Ermənistan silahlı qüvvələrinin dövlət sərhədində törətdiyi genişmiqyaslı təxribatların qarşısının alınması zamanı hərbi qulluqçularımızın şəhid olması ilə bağlı Prezident İlham Əliyevə, Azərbaycan xalqına və həlak olanların yaxınlarına başsağlığı verib. Dövlətimizin başçısı başsağlığına görə minnətdarlığını bildirib.

Görüşdə Azərbaycanın və Türkiyənin daim bir-birinin yanında olduqları bir daha qeyd edilib. Ölkələrimizin strateji müttəfiqlik münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulanıb.

Dövlət başçıları müxtəlif sahələrdə əməkdaşlığa dair birgə layihələri müzakirə ediblər və gələcək təmaslarla bağlı fikir mübadiləsi aparıblar.

# Canımızdan yetmiş bir can...

## Başın sağ olsun, Azərbaycan!

Xəbər verdiyimiz kimi, 13-14 sentyabr tarixlərində Ermənistan silahlı qüvvələri Ermənistan-Azərbaycan sərhədinin Daşkəsən, Kəlbəcər, Laçın və Zəngilan istiqamətlərində genişmiqyaslı təxribatlar törədib.

Rəşadətli Ordumuz düşmənin mənfur niyyətini gözündə qoyaraq sarsıdıcı cavab tədbirləri görüb. 44 günlük Vətən müharibəsindən sonra düşmənə ən böyük zərbəni vuran qəhrəman döyüşçülərimiz Ermənistan silahlı qüvvələrinin nəzarətində olan bir çox strateji yüksəkliyi ələ keçirib. Düşmənin dayaq məntəqələri, böyük hərbi hissəsi, silah-sursat anbarları, texnika və avadanlıqları sıradan çıxarılıb, yüzlərlə canlı qüvvəsi məhv edilib.

Müdafiə Nazirliyinin məlumatına əsasən, gərgin döyüşlər zamanı Silahlı Qüvvələrimizin 71 hərbi qulluqçusu şəhidlik zirvəsinə ucalıb: 2 kapitan, 3 baş leytenant, 7 leytenant, 4 baş gizir, 10 gizir, 4 kiçik gizir, 2 baş çavuş, 1 kiçik çavuş, 38 əsgər...



İlk baxışda bu bir statistika kimi görünsə də, əslində, təkcə 71 ailənin deyil, ölkəmizdə və xaricdə yaşayan 50 milyonluq xalqımızın qəlbini sızladan mənzərədir. Yetmiş bir can hər birimizin bağrından ayrılan candır...

Ancaq Vətən igid, mərd oğulları ilə Vətən olur. Azərbaycan uğrunda, onun hər qarışı üçün canını və qanını əsirgəməyən qəhrəmanların xatirəsi həmişə əziz tutulacaq. Onlar yeni nəsillər üçün daim gerçək örnəklər olaraq xatırlanacaq.

Allah bütün şəhidlərimizə rəhmət eləsin.

***Vətən uğrunda canından keçən qəhrəman oğulların siyahısı səh.2-də***

## Şuşadan mədəniyyət iqtisadiyyatı ilə bağlı mesajlar səslənəcək




Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun birgə təşkilatçılığı ilə 18-20 sentyabr tarixində Şuşa və Bakı şəhərlərində "Azərbaycanda mədəniyyət iqtisadiyyatı: Şuşadan inkişaf impulsları" adlı beynəlxalq elmi-praktik konfrans keçiriləcək.

"Şuşa İli" çərçivəsində #think4culture çağırışı ilə gerçəkləşəcək tədbir ölkəmizdə mədəniyyət iqtisadiyyatının inkişaf perspektivlərinə həsr olunub.

Birinci hissəsi Şuşada, ikinci hissəsi isə Bakıda keçiriləcək beynəlxalq konfransda 15-ə yaxın ölkədən sahə üzrə ekspertlər, eləcə də yerli mütəxəssislər mədəniyyət iqtisadiyyatı ilə bağlı aktual məsələləri müzakirə edəcək və bu istiqamətdə öz təkliflərini təqdim edəcəklər.

Tədbirin əsas məqsədi mədəniyyət sahəsində gəlirliliyin, yaradıcı sənayelərin ölkə iqtisadiyyatında payının artırılması, yaradıcı sənayelərin ixrac potensialının gücləndirilməsi kimi məsələlərin müzakirəsi və bu sahəyə ictimai marağın təşviq olunmasıdır.

Konfransa dəvət olunan xarici ekspertlər mövzu üzrə beynəlxalq təcrübəni bölüşəcək və yerli iştirakçılarla qlobal tendensiyalara dair fikir mübadiləsi aparacaqlar.

Beynəlxalq elmi-praktik konfrans eyni zamanda Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı kimi statusunun beynəlxalq aləmdə təbliğinə, işğaldan azad edilmiş ərazilərdə Azərbaycan tərəfindən artıq qısa müddət ərzində aparılmış bərpa və yenidənqurma işlərinin beynəlxalq aləmdə tanınmasına xidmət edəcək, həmin ərazilərdə mədəni və yaradıcı sənayelərin inkişafına töhfə olacaq.

Beynəlxalq elmi-praktik konfrans barədə daha ətraflı məlumatlar tədbirin sosial media hesablarında mütəmadi olaraq yayımlanır.

# Yenidən Üzeyir dühasının işığında

## 14-cü festival müxtəlif ölkələrdən musiqiçiləri bir araya gətirəcək

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 1995-ci ildə imzaladığı müvafiq fərmana uyğun olaraq, ölkəmizdə 18 sentyabr – dahi bəstəkar Üzeyir Hacıbəylinin doğum günü musiqi bayramı – "Üzeyir musiqi günü" kimi qeyd edilir.

Hər il bu əlamətdar gün münasibətilə respublikamızda silsilə tədbirlər – konsert, konfrans, ustad dərsi, sərgi və s. təşkil olunur. 2009-cu ildən etibarən isə sentyabr ayında Azərbaycan bəstəkarlıq məktəbinin banisi Üzeyir Hacıbəyliyə həsr olunmuş Beynəlxalq Musiqi Festivalı keçirilir. Ənənəvi olaraq 18 sentyabrda başlanan festivalda görkəmli musiqiçilər, bədii kollektivlər, solistlər, dirijorlar iştirak edirlər.

18-26 sentyabr tarixində Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı 14-cü dəfə ölkəmizdən və xaricdən ifaçı və kollektivləri, musiqi mütəxəssislərini bir araya gətirəcək. Heydər Əliyev Fondunun dəstəyi və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən festivalda bu dəfə 15 ölkədən (ABŞ, Norveç, Fransa, Avstriya, Almaniya, Türkiyə, Yunanıstan, Qazaxıstan, Bolqarıstan, Macarıstan, Rusiya, Yaponiya, Cənubi Koreya, Al-




maniya və Gürcüstan) musiqiçilərin iştirakı nəzərdə tutulur.

***davamı səh. 3-də***

# Cümhuriyyəti paytaxtına, qardaşı qardaşa qovuşduran gün



Azərbaycanın istiqlal tarixində 1918-ci ilin 15 sentyabrının müstəsna yeri var. Bu, təkcə milli dövlətimizin – Azərbaycan Xalq Cümhuriyyətinin özünün paytaxtına qovuşduğu gün deyil, daha geniş kontekstdə götürdükdə, Azərbaycan və Türkiyə qardaşlığının tarix durduqca yaşayacaq möhtəşəm bir xatirəsidir.

104 il əvvəl Türkiyə (Osmanlı) dövlətinin qardaş köməyi olaraq göndərdiyi, Nuru paşanın komandanlığı altındakı Qafqaz İslam Ordusu və Cümhuriyyətimizin müvəqqəti paytaxtı Gəncədə təşəkkül tapan ilk milli diviziyanın (Azərbaycan korpusu) birləşmiş qüvvələrinin tarixi zəfər yürüşü sentyabrın 15-də Bakını "Sentrokaspi diktaturası" və daşnak qüvvələrindən azad etdi. Sovetlər zamanında tarix kitablarımızdan çıxarılsa da, qan yaddaşından və xalqın ruhundan silinməyən bu gün indi şan və şərəf, qürur və iftixar salnaməsidir.

1918-ci ilin 15 sentyabrında Qafqaz İslam Ordusu Bakını Cümhuriyyətə, Cümhuriyyəti isə bütün Azərbaycan xalqına qovuşdurdu. Gəncə, Göyçay, Ağsu, Kürdəmir, Şamaxı ətrafındakı döyüşlərdən keçən qalibiyyət yürüşü Bakının küçələrində müzəffər paradla tamamlandı. Sentyabrın 17-də milli hökumət Bakıya köçdü, Bakı paytaxt adını və mahiyyətini özünə qaytardı.

70 ilin ideoloji örtüyünün gizlətdiyi gerçək, kitab və dərsliklərimizdən çıxarılsa da, qan yaddaşımızdan heç zaman silinməyən o qəhrəmanlıq salnaməsi müstəqillik tariximizdə haqq etdiyi yerini tutdu.

Gerçək tariximizlə yanaşı, həmin tarixi öz qanları ilə yazmış şəhid qardaşlarımızın xatirəsi də bərpa olundu. 1999-cu il sentyabrın 15-də Bakının Şəhidlər xiyabanındakı məzarların yanında 1918-ci ilin sentyabrında Bakını azad edərkən şəhid olmuş türk əsgərlərinin xatirəsinə möhtəşəm bir abidə ucaldıldı.

104 il əvvəl Gəncədən Bakıyadək uzanmış savaş yolu boyunca türk mehmetçiklərinin gömüldüyü çoxlu adsız məzarlıq mövcuddur ki, onların da üzərində belə xatirə abidələri ucaldılıb. Azərbaycanın müstəqilliyi uğrunda şəhid olmuş 1130 türk əsgərinin xatirəsinə ucaldılan bu qranit abidələr heç vaxt sarsılmayacaq Türkiyə-Azərbaycan qardaşlığının simvolu kimi gələcək nəsillərə tarixdən dərs verəcək daş kitabələrdir.

Qoy Azərbaycanın hər yeni nəsli bu qranit kitabələrin üzərində həkk olunmuş tariximizi diqqətlə oxusun və unutmasın...

***mövzunun davamı səh. 2-də***

## Ölkəmiz Daşkənd kinofestivalında təmsil olunur



Sentyabrın 15-də Özbəkistanda "İpək Yolunun dürdanəsi" XIV Daşkənd kinofestivalının təntənəli açılış mərasimi keçirilib.

***səh. 3***

# 29 ildən sonra ilk zəng...

## Ağalı kənd məktəbində dərs ili başlayıb

Sentyabrın 15-də Zəngilan rayonu Ağalı kənd tam orta məktəbində yeni dərs ilinin başlandığını bildirən ilk zəng səslənib.

Bu münasibətlə keçirilən tədbirdə Zəngilan rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev, elm və təhsil naziri Emin Əmrullayev iştirak ediblər.

İlk dərs günü Dövlət Himninin səsləndirilməsi ilə başlayıb, sonra şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Tədbirdə çıxış edən nazir Emin Əmrullayev şəhidlərimizə rəhmət, qazilərimizə şəfa diləyib. Nazir bildirib ki, 29 ildən sonra Ağalı kənd tam orta məktəbində ilk dərs gününün qeyd olunması məhz onların sayəsində gerçəkləşdi. Ağalıda məktəbin fəaliyyətə başlaması çox qürurverici və tarixi hadisədir. Bu gün hər birimizin yaddaşında xoş xatirələrlə qalacaq.

Prezidentin xüsusi nümayəndəsi Vahid Hacıyev yeni tədris ilinin başlanması münasibətilə şagirdləri təbrik edib və məktəb kollektivinə uğurlar arzulayıb.



Daha sonra tədbir iştirakçıları məktəblə tanış olublar. Məktəb 360 şagird yerlikdir. 2022-2023-cü tədris ilində məktəbdə 65 şagirdin təlim-tərbiyəsi ilə 13 müəllim məşğul olacaq.

"Ayrılıq" nəğməkarının xatirəsi anılıb



***səh. 3***

Mədəniyyət Nazirliyinin tabeliyinə verilmiş muzeylərə baxış keçirilib

***səh. 3***



Xalça Muzeyinin tədris proqramına qeydiyyat davam edir

***səh. 5***

№68 (1941)
16 sentyabr 2022
www.medeniyyet.az

# Canımızdan yetmiş bir can...

*əvvəli səh. 1-də*

Kapitan Qurbanov Saleh Möhübbət oğlu (təvəllüdü – 14.04.1990)
Kapitan Mehbalı Fərid Kəmaləddin oğlu (18.01.1994)
Baş leytenant Bədəlov Cavidan Zaur oğlu (28.03.1996)
Baş leytenant Əliyev Əli Cavad oğlu (01.09.1997)
Baş leytenant Kazımov Yunis Qasım oğlu (24.09.1993)
Leytenant Hümbətov Ravil Mübariz oğlu (10.01.1987)
Leytenant Hüseynov Erkin Ədalət oğlu (12.10.1998)
Leytenant İsgəndərov Qorxmaz İsgəndər oğlu (23.10.1999)
Leytenant Məlikov Vüsal Bəxtiyar oğlu (01.01.2000)
Leytenant Ömərov Sərxan Mübariz oğlu (18.10.1999)
Leytenant Rəsulov Murad İlqar oğlu (05.08.2000)
Leytenant Şirinov Ömər Muğan oğlu (20.09.1999)
Baş gizir Əhmədov Firuz Məzahir oğlu (09.12.1985)
Baş gizir Rüstəmov Elnur Faid oğlu (05.11.1989)
Baş gizir Məmmədov Azər Mustafa oğlu (04.03.1993)
Baş gizir Məmmədov Nahid Hüseynağa oğlu (09.05.1990)
Gizir Budaqlı İsmayıl Məhərrəm oğlu (12.01.1998)
Gizir Əhədzadə Xəyal Əlövsət oğlu (21.08.1998)
Gizir Əhmədov Səbuhi Fuad oğlu (21.12.1996)
Gizir Əzizov Nəzər Ağacəlil oğlu (28.08.1991)
Gizir Həsənov Səid Sarbala oğlu (10.11.1992)
Gizir İmamverdiyev Asiman Mehman oğlu (02.08.1988)
Gizir Kərimov Azad Zakir oğlu (27.05.1994)
Gizir Qocayev Vadim Alik oğlu (10.01.1997)
Gizir Məmmədov Məhəmməd Bilal oğlu (15.12.1995)
Gizir Muradov Seyfəddin Mahmud oğlu (09.09.1993)
Kiçik gizir Hüseynov Ziyarət Mail oğlu (15.05.1994)
Kiçik gizir Babazadə Elşən Sahib oğlu (04.04.1996)
Kiçik gizir Nəsirov Ülvü Əsədulla oğlu (15.05.2000)
Kiçik gizir Rüstəmov Fərid Nofəl oğlu (15.12.1993)
Baş çavuş Sadıxov Şəmistan Əbdülağa oğlu (28.12.1994)
Baş çavuş Rəhimov Təbriz Rəhim oğlu (11.08.1990)
Kiçik çavuş Abbaslı Nail Adil oğlu (10.02.1997)
Əsgər Abdullayev Elvin Elçin oğlu (23.05.2003)
Əsgər Ağazadə Mirtalıb Heydər oğlu (16.01.1994)
Əsgər Əhmədzadə Məftun Seymur oğlu (02.02.1996)
Əsgər Əliyev Üzeyir Sabir oğlu (24.02.1993)
Əsgər Əzizli Sadiq Zaur oğlu (13.03.2003)
Əsgər Fərzəliyev Emin Elnur oğlu (20.12.1998)
Əsgər Fətullayev Rəfail Rüfət oğlu (22.03.2003)
Əsgər Heydərov Şair Camaloviç (04.09.1998)
Əsgər Həsənov İbrahim Şöhrət oğlu (18.01.2004)
Əsgər Həsənov Ümid İlqar oğlu (14.07.2001)
Əsgər Hüseynov Elmir Abdul oğlu (21.07.2003)
Əsgər Hüseynov Səddam Rafiq oğlu (01.09.1997)
Əsgər Xəlilov Qədim İlqar oğlu (20.08.2002)
Əsgər İmamquliyev Ümid Vüqar oğlu (28.08.2003)
Əsgər İsayev Sadiq Rəşad oğlu (14.03.2003)
Əsgər Kərimov Zöhrab Azad oğlu (14.08.2003)
Əsgər Qasımov Nihad Mehman oğlu (03.02.2003)
Əsgər Qasımov Rəşad Ənvər oğlu (29.03.2003)
Əsgər Qəfərli Amin Rasim oğlu (22.01.2004)
Əsgər Quliyev Fərid Vahid oğlu (07.11.2003)
Əsgər Qurbanov Xəqan Daşqın oğlu (17.06.2002)
Əsgər Qurbanzadə Cəmil Anar oğlu (27.04.2003)
Əsgər Lətifov Fərid Qiyas oğlu (10.10.2001)
Əsgər Mahmudzadə Ülvi Məzahir oğlu (31.05.1991)
Əsgər Məhərrəmov Elnur Nərbala oğlu (18.05.2001)
Əsgər Məhərrəmov Turan Tərlan oğlu (27.05.2001)
Əsgər Məmmədli Namiq Ağəmməd oğlu (02.05.1996)
Əsgər Məmmədov Səfiyar Elşən oğlu (01.01.2002)
Əsgər Nəbiyev Hüseynalı Hikmət oğlu (17.07.1999)
Əsgər Nəsibov Kənan Cəbrayıl oğlu (20.04.1999)
Əsgər Muradov Bəxtiyar Güloğlan oğlu (24.08.2003)
Əsgər Nəsibov Kənan Cəbrayıl oğlu (20.04.1999)
Əsgər Rzayev Tərlan Pərviz oğlu (01.07.2003)
Əsgər Səmədov Elmin Mirzəli oğlu (01.02.1996)
Əsgər Süleymanov Xəyal Elxan oğlu (27.11.1996)
Əsgər Şirinov Polad Seyran oğlu (05.10.2002)
Əsgər Verdiyev Nihad Nicat oğlu (19.03.2003)
Əsgər Zülfüzadə Coşqun Ədail oğlu (27.12.1998)

Allah bütün şəhidlərimizə rəhmət eləsin.

# Ordumuz sərhəddə düşmən bölmələrinə sarsıdıcı zərbələr vurub

## Sentyabrın 14-ü saat 20-də atəşkəs əldə olunub

Ermənistanın Azərbaycanla sərhəddə törətdiyi genişmiqyaslı təxribat nəticəsində sentyabrın 12-si gecədən başlayan hərbi toqquşmalar sentyabrın 13-də, həmçinin ayın 14-ü axsam saatlarınadək davam edib.

Müdafiə Nazirliyindən verilən məlumata görə, erməni tərəfi Azərbaycan Ordusunun Kəlbəcər, Laçın və Daşkəsəndə olan bölmələrini atəşə tutub. Kəlbəcər rayonunun Zəylik, Yellicə və Yuxarı Ayrım yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqeləri Ermənistan silahlı qüvvələrinin Basarkeçər rayonunun Yuxarı Şorca, Aşağı Şorca və Zərkənd yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərindən D-30 və D-20 toplarından istifadə olunmaqla atəşə tutulub. Ordumuz tərəfindən cavab tədbirləri görülüb, düşmənin atəş nöqtələri susdurulub.

Qeyd edək ki, Azərbaycan Ordusunun həyata keçirdiyi qətiyyətli cavab tədbirləri zamanı bölmələrimiz tərəfindən strateji əhəmiyyətə malik bir sıra hakim yüksəkliklər nəzarətə götürülüb. Əməliyyat çərçivəsində Ermənistan silahlı qüvvələrinə məxsus 2 ədəd S-300 5N63 İYR radarı, 3 ədəd S-300 5P85 BQ buraxıcı qurğusu, 2 ədəd S-125 RTS-125 radarı, eləcə də xeyli sayda canlı qüvvəsi məhv edilib. Həmçinin qarşı tərəfə məxsus 1 ədəd radioelektron mübarizə (REM) vasitəsi JİTEL, 20-dək top və haubitsa, 10-dan çox minaatan və 6-sı sursatla dolu olmaqla ümumilikdə 32 ədəd avtomobil texnikası sıradan çıxarılıb.

Sentyabrın 14-ü saat 20-də atəşkəs əldə olunub.

# Ölkəmiz ilk dəfə Şanxay Əməkdaşlıq Təşkilatının sammitində təmsil olunur

## Prezident İlham Əliyev Səmərqənd sammitinə dəvətə görə Özbəkistan rəhbərinə təşəkkürünü bildirib

Özbəkistanın Səmərqənd şəhəri 15-16 sentyabr tarixində Şanxay Əməkdaşlıq Təşkilatına (ŞƏT) üzv ölkələrin Sammitinə ev sahibliyi edir. Azərbaycan ilk dəfə bu təşkilatın zirvə toplantısında təmsil olunur.

Təşkilat 2001-ci ildə Qazaxıstan, Çin, Qırğızıstan, Rusiya, Özbəkistan və Tacikistan tərəfindən Şanxayda təsis olunub. Hazırda ŞƏT-in 8 üzvü (Qazaxıstan, Çin, Rusiya, Qırğızıstan, Özbəkistan, Tacikistan, Pakistan, Hindistan), 4 müşahidəçi üzvü (Əfqanıstan, İran, Monqolustan, Belarus) və 9 dialoq tərəfdaşı (Azərbaycan, Türkiyə, Şri-Lanka, Kamboca, Nepal, Ermənistan, Misir, Qətər, Səudiyyə Ərəbistanı) var. Sentyabrın 15-də Səmərqənddə İranın ŞƏT-ə üzv olması ilə bağlı memorandum imzalanıb.

Təşkilatın əsas məqsədləri üzv dövlətlər arasında qarşılıqlı etimad və qonşuluq münasibətlərinin gücləndirilməsi; siyasət, ticarət və iqtisadiyyat, elm və texnologiya, mədəniyyət, habelə təhsil, enerji, nəqliyyat, turizm və digər sahələrdə effektiv əməkdaşlığın inkişaf etdirilməsi; regionda sülh, təhlükəsizlik və sabitliyin əldə edilməsi üçün birgə səylərin göstərilməsi, yeni siyasi və iqtisadi beynəlxalq düzənin yaradılması üçün addımların atılmasından ibarətdir.

ŞƏT-in iki daimi orqanı – Pekində yerləşən Katibliyi və Daşkənddə yerləşən Terrorizmə qarşı Regional Strukturu var.

ŞƏT-də dialoq tərəfdaşı statusuna sahib Azərbaycanla təşkilat arasında 2016-cı ildə əməkdaşlığa dair memorandum imzalanıb.

***

Azərbaycan Prezidenti İlham Əliyev Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin dəvəti ilə ŞƏT sammitində iştirak etmək üçün sentyabrın 15-də Səmərqəndə gəlib.

Dövlət başçısı rəsmi görüşlərdən öncə Səmərqənddə Özbəkistan Respublikasının birinci Prezidenti İslam Kərimovun məqbərəsini ziyarət edib. Prezident məzar önünə gül dəstəsi qoyub. Sonra "Qurani-Kərim"dən ayələr oxunub.

Sentyabrın 15-də Səmərqənddə Azərbaycan və Özbəkistan prezidentlərinin görüşü olub.



Şavkat Mirziyoyev Azərbaycan Prezidentinin iyunda Özbəkistana dövlət səfərini xatırladaraq bu səfər zamanı müəyyənləşdirilən istiqamətlər üzrə işlərin uğurla davam etdirildiyini, hökumətlərarası komissiyanın fəaliyyətinin təşkil olunduğunu vurğulayıb. Qarşıda duran əsas məsələnin əlaqələrimizin bütün sahələrdə daha da inkişaf etdirilməsi olduğunu vurğulayan Özbəkistan rəhbəri iki ölkənin mədəniyyət xadimlərinin qarşılıqlı təltif olunmasını müsbət hal kimi dəyərləndirib.

İlham Əliyev Şanxay Əməkdaşlıq Təşkilatının Sammitində ilk dəfə iştirak üçün dəvətə görə Şavkat Mirziyoyevə təşəkkürünü bildirib. Azərbaycanın ŞƏT-də dialoq tərəfdaşı statusuna sahib olduğunu vurğulayan dövlət başçısı ölkəmizin ilk dəfə məhz Özbəkistanın sədrliyi dövründə fəxri qonaq qismində təşkilatın zirvə toplantısına dəvət olunduğunu diqqətə çatdırıb.

Azərbaycan Prezidenti qardaş Özbəkistanın Şavkat Mirziyoyevin rəhbərliyi ilə inkişafının xalqımızda böyük sevinc hissi doğurduğunu qeyd edib. Bildirib ki, biz qardaş, dost ölkə olaraq yenidən birləşdik və əlaqələrimizdə yeni məzmun yaradırıq.

Prezident İlham Əliyev Prezident Şavkat Mirziyoyevi Azərbaycana səfərə dəvət edib. Şavkat Mirziyoyev dəvəti məmnunluqla qəbul edib.

***



Sentyabrın 15-də Səmərqənddə Prezident İlham Əliyevin Çin Xalq Respublikasının Sədri Si Cinpin ilə görüşü olub.

Prezident Çinin lideri ilə əvvəlki görüşlərini məmnuniyyətlə xatırladıb, xüsusilə 2019-cu ildə "Bir kəmər, bir yol" Forumunda iştirak etmək üçün Çinə səfərini yüksək qiymətləndirdiyini vurğulayıb. Dövlət başçısı Azərbaycan ilə Çin arasında münasibətlərin strateji tərəfdaşlıq xarakteri daşıdığını, ölkələrimizin bir çox sahələrdə uğurla əməkdaşlıq etdiyini diqqətə çatdırıb.

İlham Əliyev COVID-19 pandemiyasına qarşı mübarizədə Çinin Azərbaycana göstərdiyi dəstəyi, Çindən alınmış peyvəndlər sayəsində Azərbaycanın vaksinasiya prosesinə başlayan ilk ölkələrdən olmasını həmrəyliyin nümunəsi kimi dəyərləndirib.

Prezident İlham Əliyev "Orta dəhliz", "Bir kəmər, bir yol" layihələri çərçivəsində də əməkdaşlıq və tərəfdaşlıq üçün böyük perspektivlərin olduğunu vurğulayıb. Qeyd edib ki, Azərbaycan işğaldan azad etdiyi ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işləri həyata keçirir. Çinin bir çox şirkətləri də bu işlərdə iştirak üçün müraciət edib.

Si Cinpin ölkəsinin Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəklədiyini bildirib və Azərbaycanın da Çinin ərazi bütövlüyünə və suverenliyinə göstərdiyi dəstəyi yüksək qiymətləndirdiyini qeyd edib. Bildirib ki, dövlətlərin işlərinə qarışmamaq vacib prinsipdir.

İlham Əliyev Azərbaycanın Çinin ərazi bütövlüyünü və suverenliyini daim dəstəklədiyini, Çinin də ölkəmizin ərazi bütövlüyünə birmənalı dəstəyini həmişə yüksək qiymətləndirdiyini vurğulayıb, buna görə Si Cinpinə təşəkkürünü ifadə edib.

Söhbət zamanı ölkələrimiz arasında müxtəlif sahələrdə əməkdaşlıq üçün böyük perspektivlərin olduğu vurğulanıb, tələbə mübadiləsinin artırılması, ölkələrimizin şəhərləri arasında birbaşa əlaqələrin qurulmasının vacibliyi qeyd edilib.

Qeyd edək ki, ŞƏT-in dövlət başçıları səviyyəsində zirvə toplantısı sentyabrın 16-da olacaq. Sammit çərçivəsində Azərbaycan Prezidentinin bir sıra görüşləri də nəzərdə tutulub.

# 15 sentyabr Azərbaycan və Türkiyə üçün tarixi gündür

Sentyabrın 15-də Qafqaz İslam Ordusu tərəfindən Bakının daşnak-bolşevik işğalından azad edilməsinin 104-cü ildönümü münasibətilə Türkiyənin Azərbaycandakı Səfirliyində tədbir keçirilib.

Tədbir iştirakçıları əvvəlcə Bakının Qafqaz İslam Ordusu tərəfindən işğaldan azad olunmasını əks etdirən rəsm sərgisi ilə tanış olublar.

Sonra Azərbaycan və Türkiyə şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, iki ölkənin Dövlət himnləri səsləndirilib.

Tədbirdə Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağcı, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva, TÜRKPA-nın Baş katibi Mehmet Süreyya Er, Milli Məclisin deputatları və digər qonaqlar iştirak ediblər.

Mərasimdə çıxış edən səfir Cahit Bağcı Türkiyə-Azərbaycan qardaşlığından danışıb, 15 sentyabr tarixinin əhəmiyyətindən söz açıb.

"Bu gün Bakının işğaldan azad edilməsinin 104-cü ildönümüdür, Azərbaycan və Türkiyə üçün çox vacib və tarixi gündür", – deyən diplomat bildirib ki, 1918-ci ildə iki qardaş xalqın oğulları birlikdə Bakını daşnak-bolşevik işğalından azad ediblər.

İkinci Qarabağ müharibəsindən danışan Cahit Bağcı deyib: "Azərbaycan 30 illik işğala 44 gündə son qoydu. Bir neçə gün əvvəl sərhəddə erməni təxribatı baş verdi, şəhidlərimiz oldu, Allah onlara rəhmət eləsin. Lakin Azərbaycan Ordusu düşmənə növbəti dəfə "dəmir yumruğ"un gücünü göstərdi".

Milli Məclisin deputatı Anar İskəndərov 15 sentyabr hadisələrinin tarixindən danışıb: "O vaxt Nuru paşa ölkəmizdə coşqu ilə qarşılandı. Azərbaycan türk qardaşlarını xilaskar kimi görürdü.




Dünya tarixində heç bir millət başqa dövlətin müstəqilliyi uğrunda döyüşməyib. Amma türklər qardaşlarımız olduqları üçün onlar bizim suverenliyimizə görə canlarından keçdilər. Eynilə azərbaycanlılar da Çanaqqala savaşında öz qardaşlarına kömək ediblər".

O bildirib ki, Azərbaycan Türkiyəni hər zaman öz yanında görüb. Bunun ən bariz nümunəsi Vətən müharibəsində oldu. Şuşa Bəyannaməsi ilə Azərbaycan-Türkiyə qardaşlığı daha da möhkəmləndi.

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva qeyd edib ki, 104 il əvvəl türk və Azərbaycan əsgərləri çiyin-çiyinə tarix yazdılar. Nuru paşanın rəhbərliyi ilə Qafqaz İslam Ordusu Azərbaycana gələrək Bakını işğaldan azad etdi. "Bakının azad olunması Azərbaycan-Türkiyə qardaşlığında müstəsna rol oynadı. Son dövrləri də nəzərə alsaq görərik ki, iki ölkə bir-birinə hər zaman dəstək verib. Beynəlxalq təşkilatlarda da dövlət və hökumət başçıları Azərbaycan və Türkiyənin maraqlarını ilk sıraya qoyurlar", – deyə G.Əfəndiyeva vurğulayıb.

Milli Məclisin deputatları Aydın Mirzəzadə, Hikmət Babaoğlu, Ramil Həsən 15 sentyabr tarixinin əhəmiyyətindən danışıb, Türkiyə və Azərbaycan tərəfdaşlığını möhkəmləndirən Şuşa Bəyannaməsinin mühüm əhəmiyyətini bir daha diqqətə çatdırıblar.

Türkdilli Ölkələrin Parlament Assambleyasının (TÜRKPA) Baş katibi Mehmet Süreyya Er müştərək tariximizin qürurlu hadisələrlə zəngin olduğunu bildirib: "Türk dövlətləri dünyada böyük gücə sahibdirlər. Onlar bir-birinə dəstək verərsə, böyük güc formalaşdıra bilərlər. Hazırda Türk dünyasının birliyi böyük əhəmiyyət kəsb edir".

Xəzər Universitetinin dosenti Telman Nüsrətoğlu 15 sentyabr hadisələri və Azərbaycan-Türkiyə əlaqələrinin tarixi haqqında sənədləri təqdim edib. Cənubi Qafqazda ermənilərin yerləşdirilməsi haqqında danışıb.

Tədbir "Qurani-Kərim"in tilavəti və şəhidlərin ruhuna duaların oxunması ilə başa çatıb.

# Şuşada Türk Biznes Forumu

Sentyabrın 16-da Şuşa şəhərində Qarabağ regionunun bərpası və inkişafına həsr olunmuş Türk Biznes Forumu keçiriləcək.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyindən (KOBİA) verilən məlumata görə, tədbirdə Türk Dövlətləri Təşkilatının beş daimi üzvü (Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan) və müşahidəçi üzv Macarıstanın dövlət qurumlarının, eləcə də müxtəlif təşkilatların və diplomatik korpusun nümayəndələri, iş adamları iştirak edəcəklər.

Forumun məqsədi dövlətlər arasında iqtisadi, biznes və investisiya əlaqələrinin daha da dərinləşməsi, sahibkarlar arasında dialoqun təşviqi, Qarabağ regionunun iqtisadi və sərmayə potensialının xarici iş adamlarına təqdim olunmasıdır.

Forumda Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonunda investisiya imkanları" mövzusunda xüsusi sessiya, bir sıra sənədlərin imzalanması və Şuşa şəhəri ilə tanışlıq nəzərdə tutulur.

# Tarix və mədəni irsimizin saxlanc yerləri

## Mədəniyyət Nazirliyinin tabeliyinə verilmiş muzeylərə baxış keçirilib

Məlum olduğu kimi, "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 iyul tarixli 1769 nömrəli Fərmanına əsasən, Azərbaycan Milli Elmlər Akademiyasının Milli Azərbaycan Tarixi Muzeyi, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi və Hüseyn Cavidin Ev-Muzeyi Mədəniyyət Nazirliyinin tabeliyinə verilib. Fərmanın müvafiq bəndinin icrası ilə əlaqədar Mədəniyyət Nazirliyi tərəfindən zəruri işlər görülür.





Sentyabrın 13-14-də mədəniyyət naziri Anar Kərimov, nazir müavini Sevda Məmmədəliyeva, nazirliyin Muzey, qalereya və sərgilər şöbəsinin əməkdaşları sözügedən muzeylərdə olublar. Nazir Anar Kərimov muzeylərin fəaliyyəti ilə maraqlanıb, ekspozisiyalara baxıb, kollektivlərlə söhbət edib, fikirlərini bölüşüb.

Milli Azərbaycan Tarixi Muzeyinə ziyarət zamanı muzeyin baş direktoru, akademik Nailə Vəlixanlı qədim zamanlardan müasir dövrədək Azərbaycan tarixini əks etdirən 300 minədək eksponatın saxlanıldığı muzeyin fondları barədə məlumat verib. Baş direktor muzeyin nəşrləri və ekspozisiyada sərgilənən eksponatlar haqqında da söz açıb, muzeydə fəaliyyət göstərən bərpa laboratoriyası və burada həyata keçirilən işlərdən bəhs edib.

Anar Kərimov Milli Azərbaycan Tarixi Muzeyinin elmi tədqiqat müəssisəsi kimi fəaliyyətinin davam etdirilməsinin zəruriliyini qeyd edərək bildirib ki, zəngin tariximizin daha düzgün təqdim olunmasına, indiyədək yol verilən təhriflərin düzəldilməsinə xüsusilə ehtiyac var.

Nazir qeyd edib ki, muzeydə tədqiqat işinə böyük diqqət ayrılmalı, bu sahədə çalışan əməkdaşların peşəkarlığı artırılmalı və araşdırmaların xarici dillərə tərcüməsi təmin olunmalıdır. Vurğulanıb ki, bununla Azərbaycanla bağlı tarixi həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, mədəni dəyərlərimizin tanıdılması və tarixi irsimizin qorunmasına töhfə vermiş olarıq.



Diqqətə çatdırılıb ki, Milli Azərbaycan Tarixi Muzeyinin Mədəniyyət Nazirliyinin tabeliyində fəaliyyət göstərməsi bu istiqamətdə daha səmərəli işlərin həyata keçirilməsinə imkan verəcək.

Görüş zamanı muzeyin gələcək fəaliyyəti ilə bağlı müzakirələr aparılıb.

***

Anar Kərimov və nazirliyin nümayəndələri Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin fəaliyyəti ilə tanış olublar.

Muzeyin baş direktoru, akademik, millət vəkili Rafael Hüseynov Azərbaycan ədəbiyyatının müxtəlif tarixi dövrlərini özündə əks etdirən zəngin ekspozisiya barədə məlumat verib, ədəbi irsimizin tədqiqi və təbliği məqsədilə muzeydə aparılan elmi-tədqiqat işlərindən bəhs edib.

Anar Kərimov muzeylərin yalnız Azərbaycan xalqının tarixi və mədəni ənənələrini tədqiq və təbliğ edən, mədəni inkişaf istiqamətində əməli tədbirlər həyata keçirən, milli mədəniyyətin qorunması, zənginləşdirilməsi və inkişafında xidmətlər göstərən müəssisə kimi deyil, həmçinin elmi tədqiqat müəssisəsi kimi fəaliyyətinin davam etdirilməsinin zəruriliyini qeyd edib. Bildirilib ki, Azərbaycan dövləti xalqın maddi-mənəvi və milli dəyərlərinin qorunub saxlanılmasına, inkişafına daim xüsusi diqqət göstərir, Prezident İlham Əliyev tərəfindən mütəmadi olaraq muzeylərlə bağlı fərman və sərəncamlar imzalanır.

Görüş çərçivəsində həmçinin muzey əməkdaşları ilə tanışlıq olub və muzeyin gələcək fəaliyyəti ilə bağlı söhbət aparılıb.

***

Hüseyn Cavidin Ev-Muzeyi də ölkəmizin xatirə-memorial muzeyləri arasında zəngin fond və ekspozisiyası, fəaliyyəti ilə seçilir.

Muzeyin baş direktoru, filologiya üzrə elmlər doktoru Gülbəniz Babaxanlı nazirliyin nümayəndələrini muzeyin tarixi, görkəmli şairin həyat və yaradıcılığını əks etdirən ekspozisiyası ilə tanış edib. Bildirib ki, Hüseyn Cavidin yaşadığı evdə muzeyin yaradılmasında ümummilli lider Heydər Əliyevin müstəsna xidmətləri olub. Baş direktor muzeyin fəaliyyət göstərdiyi illər ərzində Hüseyn Cavid yaradıcılığının təbliği məqsədilə həyata keçirilən tədbirlər və nəşrlər barədə ətraflı məlumat verib.

Anar Kərimov ev-muzeyin rəy kitabına muzey haqqında təəssürat və ürək sözlərini qeyd edib.

# "Kitabxana bir mədəniyyət fenomeni kimi"

## Milli Kitabxananın direktoru Minskdə beynəlxalq konqresdə iştirak edib



Sentyabrın 15-də Belarusun paytaxtı Minskdə "Kitabxana bir mədəniyyət fenomeni kimi" adlı IX Beynəlxalq Konqres keçirilib.

"Kitabxanaların rəqəmsal transformasiyası: davamlılıq və inkişaf vektoru" mövzulu konqres Belarus Milli Kitabxanasının 100 illik yubileyinə həsr olunub.

Tədbirdə Azərbaycan Milli Kitabxanasını direktoru, professor Kərim Tahirov da iştirak edib.

Konqresdə "Belarus və xarici ölkələrin kitabxanaçılıq tarixi", "Milli və dünya mədəni irsinin qorunmasında kitabxanaların rolu", "Kitabxana fondlarının təşkilinə innovativ yanaşmalar", "Kitabxana və informasiya məkanında elektron resurslar", "İstifadəçi xidmətində müasir tendensiyalar", "Kitabxanaların, elm, mədəniyyət və təhsil müəssisələrinin fəaliyyətinin rəqəmsallaşdırılması", "Kitabxana sosial-mədəni məkan kimi", "Müasir şəraitdə regional kitabxanalar" və s. mövzular üzrə məruzələr dinlənilib, fikir mübadiləsi aparılıb.

Milli Kitabxananın direktoru, professor Kərim Tahirov "Kitabxanaların milli və dünya mədəni irsinin qorunmasında rolu" mövzusunda məruzə ilə çıxış edib.

Konqres çərçivəsində Avrasiya Kitabxanalar Assambleyasının (BAE) XXVI Ümumi Yığıncağı da keçirilib.

# Ölkəmiz Daşkənd kinofestivalında təmsil olunur

Sentyabrın 15-də Özbəkistanda "İpək Yolunun dürdanəsi" XIV Daşkənd kinofestivalının təntənəli açılış mərasimi keçirilib.

Festivala dünyanın 35 ölkəsindən 300-dən artıq kinematoqrafçı – rejissorlar, aktyorlar, kino sahəsinin mütəxəssisləri qatılıb. Festivalda Azərbaycan da təmsil olunur.

Əvvəlcə festivalın fəxri qonaqları qırmızı xalıdan keçərək mətbuat nümayəndələri ilə görüşüblər.

Özbəkistan Prezidentinin müşaviri Adil Abduraxmanov dövlət başçısı Şavkat Mirziyoyevin festival iştirakçılarına təbrik məktubunu oxuyub.



Ölkəmizin nümayəndə heyətinə "Azərbaycanfilm" Kinostudiyasının direktoru Nazim Hüseynov, kinorejissor, Xalq artisti Vaqif Mustafayev, rejissor, kinoşünas, Əməkdar incəsənət xadimi Ayaz Salayev, rejissor və prodüserlər Oleq Səfərəliyev, Asif Rüstəmov, İlqar Nəcəf, eləcə də Özbəkistan və Azərbaycanın Xalq artisti Gülyanaq Məmmədova, Xalq artisti Gülyaz Məmmədova daxildir.

Festivalda Ayaz Salayevin "Torpaq" və İlqar Nəcəfin "Suğra və oğulları" filmləri nümayiş etdiriləcək.

Açılış mərasimində bildirilib ki, kinofestival çərçivəsində dünyanın müxtəlif ölkələrinin ümumilikdə 150 bədii və sənədli filmi nümayiş olunacaq. Daşkənddə və Özbəkistanın regionlarında 100-dən çox yaradıcılıq tədbirinin, müzakirə və görüşlərin keçirilməsi nəzərdə tutulur.

Qeyd edək ki, sentyabrın 18-dək davam edəcək "İpək Yolunun dürdanəsi" kinofestivalı çərçivəsində Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzində "Azərbaycan kinosu günləri" də keçirilir.

# Yaqub Zurufçunun xatirəsi anılıb

Sentyabrın 14-də, məşhur müğənni, Əməkdar artist Yaqub Zurufçunun (1956 – 2021) vəfatının ildönümündə (8.4.1956 – 2021) Nizami Kino Mərkəzində xatirə gecəsi keçirilib.





Mərasimdə mədəniyyət və ictimaiyyət nümayəndələri, sənətkarın yaxınları və ailə üzvləri iştirak ediblər.

Əvvəlcə qəhrəman şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Sənətkarın həyat yoldaşı Aynur Zurufçu çıxış edərək bildirib ki, Yaqub Zurufçu bütün varlığı ilə Azərbaycan musiqisinə bağlı bir insan idi: "O, dünyanın bir çox ölkələrində Azərbaycan musiqisini layiqincə təmsil edib. Nə xoş ki, mən Y.Zurufçunun həyatında olmuşam. Nə qədər bu həyatda varamsa Y.Zurufçunun yaradıcılığına sadiq olacağam və onun sevgidən yoğurulmuş oğlu Atillanı vətənimizə layiqli bir övlad kimi böyüdəcəyəm. İnanıram ki, onu sevənlər yalnız bu zalda deyil, bütün azərbaycanlılar Yaqub Zurufçunu sevirlər və dəyərləndirirlər".

Əməkdar jurnalist Rəhman Orxan bildirib ki, azadlıq, müstəqillik arzusu ilə alışıb yanan Yaqub Zurufçu, uzun illər qəribçilikdə yaşasa da, onun Vətən sevgisi heç vaxt azalmayıb. Elə bu səbəbdən də onun mahnıları gələcək nəsillərin xatirəsində əbədi yaşayacaq.

Dünya Azərbaycanlıları Konqresinin mədəniyyət məsələləri üzrə sədr müavini, uzun illər sənətkarla çalışmış Xəzər Emin deyib: "Yaqub Zurufçu tez-tez cəbhə bölgəsində əsgərlər üçün konsertlər verirdi. Onun sənəti ilə şəxsiyyəti vəhdət təşkil edirdi. Elə şəxsiyyətlər var ki, onlar özlərindən sonra silinməz iz buraxırlar. Yaqub Zurufçu məhz belə insanlardandı...".

Xalq artisti Azər Zeynalov qeyd edib ki, Yaqub Zurufçunun səsində bir ruh dolaşır və o ruhun yaşamağa haqqı var: "Yaqub yaşamaqdan zövq alan bir insan idi. Onun "Ayrılıq" mahnısı Arazın hər iki sahilində yaşayan doğma, əziz insanları birliyə səsləyib. Yaqub Zurufçu uzun illər Vətəndən ayrı yaşadığı üçün həmin mahnını ürək yanğısı ilə oxuyurdu".



# Rəsul Rzanın Bakıda ev-muzeyi yaradılıb

2022-ci il iyunun 23-də Prezident İlham Əliyev Bakı şəhərində Xalq şairi Rəsul Rzanın ev-muzeyinin yaradılması haqqında sərəncam imzalayıb. Ötən müddətdə sərəncamın icrası ilə əlaqədar işlər həyata keçirilib. O cümlədən Mədəniyyət Nazirliyinin müvafiq əmrinə əsasən, muzeyin yerləşdiyi mənzil nazirliyin balansına götürülüb, muzeydə nümayiş olunacaq əşyalar müvafiq qaydada siyahıya alınıb.

Mədəniyyət naziri Anar Kərimov sentyabrın 13-də muzeydə görülən işlərlə tanış olub. Rəsul Rzanın oğlu – Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar, Xalq şairinin qızı – BDU-nun Şərqşünaslıq fakültəsinin Ərəb filologiyası kafedrasının baş müəllimi Fidan Rzayeva və muzeyə yeni təyin olunmuş direktor Rəsul Rzayev ilə ev-muzeyində həyata keçiriləcək təmir və bədii tərtibat işləri barədə müzakirələr və fikir mübadiləsi aparılıb. Görüşdə Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru, akademik Rafael Hüseynov, nazirliyin əməkdaşları da iştirak ediblər.

Qeyd edək ki, dövlət başçısının sərəncamına əsasən, ev-muzeyi Səbail rayonu, Rəsul Rza küçəsi 21/26, mənzil 18 ünvanında yaradılıb. Xalq şairi Rəsul Rzanın Göyçay şəhərində də ev-muzeyi fəaliyyət göstərir.

# Yenidən Üzeyir dühasının işığında

*əvvəli səh. 1-də*

Yeri gəlmişkən qeyd edək ki, sentyabrın 13-ə keçən gecədən başlayaraq Ermənistan silahlı qüvvələrinin Azərbaycanla sərhəddə törətdiyi genişmiqyaslı hərbi təxribat zamanı hərbçilərimizin şəhid olması ilə əlaqədar Mədəniyyət Nazirliyi tərəfindən festivalın proqramında bir sıra dəyişikliklər edilib. Şəhidlərimizin əziz xatirəsinə ehtiram əlaməti olaraq festivalın proqramında təntənəli tədbirlər təxirə salınıb. Belə ki, Bakı Musiqi Akademiyasının qarşısında ənənəvi təşkil edilən təntənəli açılış mərasimi, Şuşa şəhərində keçiriləcək tədbirlər, Gəncə Dövlət Filarmoniyasında Azərbaycan Dövlət Akademik Musiqili Teatrının "O olmasın, bu olsun" tamaşası, Rəşid Behbudov adına Azərbaycan Dövlət Mahnı Teatrında "Üzeyir ənənəsinin sönməyən ulduzları" adlı estrada-simfonik orkestrinin konsertləri və Fəvvarələr meydanında Nəfəs alətləri orkestrinin konsertləri təxirə salınıb.

Festivalın ilk günündə Musiqi Mədəniyyəti Dövlət Muzeyində "Şuşa musiqiçiləri" adlı sərgi keçiriləcək. 19 sentyabrda Bakı Musiqi Akademiyasında Azərbaycan əsilli pianoçu, "Fransa və Rusiyanın ulduzları və gənc istedadları" mədəni mübadilə layihəsinin yaradıcısı və rəhbəri Rəna Şereşevskayanın ustad dərsləri təşkil ediləcək. Sentyabrın 20-də isə eyni məkanda fransız pianoçu Olivye Qardonun ustad dərsi keçiriləcək.

Sentyabrın 21-də Beynəlxalq Muğam Mərkəzində bəstəkar Pikə Axundovanın "Qələbədir adın" monotamaşasının təqdimatı olacaq.

Bu il festivalın əsas proqramı ilə yanaşı, "Üzeyir ənənəsinin sönməyən ulduzları" adı altında yubileyləri olan musiqi xadimlərinə həsr olunan proqram da tərtib edilib. 22 sentyabrda Musiqi Mədəniyyəti Dövlət Muzeyində "Üzeyir ənənəsinin sönməyən ulduzları" proqramı üzrə Azərbaycan Bəstəkarlar İttifaqının sədri, Xalq artisti Firəngiz Əlizadə ilə yaradıcılıq görüşü olacaq.

Üzeyir Hacıbəyli XIV Beynəlxalq Musiqi Festivalı maraqlı tədbir və təqdimatları ilə sentyabrın 26-dək davam edəcək.

**Lalə Azəri**

№68 (1941)
16 sentyabr 2022
www.medeniyyet.az

# Vətən sizləri heç vaxt unutmayacaq!

## Şəhidlərimiz son mənzilə yola salınıb



Xəbər verdiyimiz kimi, sentyabrın 12-si gecədən başlayaraq Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan-Ermənistan dövlət sərhədinin Daşkəsən, Kəlbəcər, Laçın və Zəngilan istiqamətlərində genişmiqyaslı təxribat törədilib. Sərhədboyu toqquşmalar sentyabrın 13-14-də də davam edib.

Azərbaycan Silahlı Qüvvələrinin bölmələri böyük qəhrəmanlıq göstərərək düşməni geri oturdub. Hərbçilərimiz strateji mövqelərdə möhkəmlənərək düşmənə sarsıdıcı zərbələr endiriblər.

Müdafiə Nazirliyinin iki gün ərzində yaydığı məlumatlara əsasən, Silahlı Qüvvələrimizin 71 hərbi qulluqçusu şəhidlik zirvəsinə ucalıb. Onların sırasında Dövlət Sərhəd Xidmətinin 8 hərbi qulluqçusu da var.

Vətən fədailəri şəhər və rayonlarda böyük izdihamla son mənzilə yola salınıb.

***

1993-cü il təvəllüdlü Xüsusi Təyinatlı Qüvvələrin (XTQ) baş leytenantı Yunis Qasım oğlu Kazımov anadan olduğu Qazax rayonunun Kəmərli kəndində dəfn edilib. Dəfn mərasimində şəhidin ailə üzvləri, rayon İcra Hakimiyyətinin rəhbərliyi və rayon ictimaiyyəti iştirak edib. 44 günlük Vətən müharibəsi iştirakçısı olan Yunis Kazımov "Azərbaycan Bayrağı" ordeni, Xocavənd, Qubadlı, Hadrut, Cəbrayıl və Şuşanın azad olunmasına görə medalları ilə təltif olunub. Yunis Kazımov ailəli idi, 3 aylıq oğul övladı bizlərə əmanət qalıb.

Qazax rayonunun Kəmərli kəndi daha bir qəhrəman şəhidini torpağa tapşırıb. 1993-cü il təvəllüdlü baş gizir Azər Mustafa oğlu Məmmədovun cənazəsi doğulduğu kəndə gətirilib. Onunla vida mərasimi doğulub boya-başa çatdığı kənddə, bir ay öncə toyunun olduğu evdə keçirilib. Vida mərasimində şəhidin yaxınları ilə yanaşı, ictimaiyyət nümayəndələri, Qazax sakinləri, hərbçilər iştirak edib. Daha sonra şəhidimiz kənd qəbiristanlığında dəfn olunub.



Qazaxın Daş Salahlı kəndində isə 1994-cü il təvəllüdlü şəhid gizir Azad Zakir oğlu Kərimovla vida mərasimi keçirilib. Mərasimdə şəhidin yaxınları ilə yanaşı, kənd sakinləri və hüquq mühafizə orqanlarının əməkdaşları iştirak ediblər. Vida mərasimindən sonra şəhid kənddəki Şəhidlər xiyabanında dəfn olunub. Azadın 1 və 3 yaşlı oğul övladları Vətənə əmanət qalıb.

***

1996-cı il təvəllüdlü kiçik gizir Elşən Sahib oğlu Babazadənin cənazəsi ilə doğulduğu Qəbələ rayonunun Mıxlıqovaq kəndindəki evində vida mərasimi təşkil olunub. Mərasimdə şəhidin ailə üzvləri, yaxınları, Müdafiə Nazirliyi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, Qəbələ Rayon İcra Hakimiyyətinin əməkdaşları, rayon ictimaiyyətinin nümayəndələri və yerli sakinlər iştirak ediblər. Elşən Babazadə kənd məzarlığında "Şəhidlər ölməz, Vətən bölünməz!" şüarı ilə dəfn olunub.

***

Lerik rayonunun Əvilə kəndində doğulub boya-başa çatan 1994-cü il təvəllüdlü baş çavuş Şəmistan Əbdülağa oğlu Sadıqov doğulduğu kənddə torpağa tapşırılıb. Şəhidin cənazəsini gətirən avtomobil karvanı yolboyu sakinlər tərəfindən üçrəngli bayraqlarla müşayiət olunub. Dəfn mərasimində rayon rəsmiləri, ictimaiyyət nümayəndələri, hərbçilər iştirak edib, şəhidin ruhuna dualar oxunub.

Şəmistan Sadıqov 2013-cü ildə Əfqanıstanda Sülhməramlı qüvvələrin sıralarında xidmət edib. 2016-cı ilin Aprel döyüşləri və Vətən müharibəsinin iştirakçısı olub.



***

DSX-nin kiçik giziri Ülvi Əsədulla oğlu Nəsirovun cənazəsi ilə dünyaya göz açdığı Saatlı rayonunun Qaranuru kəndindəki evlərində vida mərasimi keçirilib, ruhuna dualar oxunub. Sonra şəhidin nəşi izdihamla kənd qəbiristanlığında torpağa tapşırılıb.

Ülvi Nəsirov həqiqi hərbi xidmətini başa vurduqdan sonra DSX-nin Çevik Hərəkət Qüvvələrində kiçik gizir kimi xidmət edib. O, 44 günlük Vətən müharibəsində Cəbrayıl, Qubadlı rayonlarının işğaldan azad olunması uğrunda döyüşüb.

***

Azərbaycan Silahlı Qüvvələrinin müddətdən artıq hərbi qulluqçusu, Salyan rayonunun Qızılağac kənd sakini, 1996-cı il təvəllüdlü Elmin Mirzəli oğlu Səmədov Alçalı kənd qəbiristanlığında dəfn edilib. Dəfn mərasimində şəhidin doğmaları, hərbçi yoldaşları, ictimaiyyət nümayəndələri iştirak ediblər. Elmin Səmədov ailənin yeganə övladı idi.

***



Xəyal Elxan oğlu Süleymanov Şəmkir rayonunda dəfn edilib. 26 yaşlı şəhidimiz doğulub boya-başa çatdığı rayonun Şeidlər kəndindəki Şəhidlər xiyabanında torpağa tapşırılıb. Dəfn mərasimində Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı Rəşad Tağıyev, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, şəhidin ailə üzvləri, hərbçi yoldaşları, ictimaiyyət nümayəndələri iştirak ediblər.



II Qarabağ müharibəsində də iştirak edən Xəyal Süleymanov "İgidliyə görə", Xocavənd, Füzuli və Şuşanın azad edilməsinə görə medalları ilə təltif olunmuşdu.

***

Neftçala rayonunun Bankə qəsəbəsində anadan olan 2003-cü il təvəllüdlü əsgər Rəfail Rüfət oğlu Fətullayev şəhərin mərkəzi qəbiristanlığında dəfn olunub. Dəfn mərasimində Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin əməkdaşları, şəhidin ailə üzvləri, yaxınları, rayon rəsmiləri və hərbçilər iştirak ediblər.

***

Son erməni təxribatı zamanı şəhid olan Vətən oğullarından biri də 1997-ci il təvəllüdlü gizir Vadim Alim oğlu Qocayevdir. Qocayevlər ailəsi daha böyük acı yaşayıb. Oğlunun cənazəsini gətirmək üçün Gəncəyə yollanan Alik Qocayev infarkt keçirib və çatdırıldığı hospitalda dünyasını dəyişib. Ata və oğul Qobustan rayonunun Sündü kənd qəbiristanlığında torpağa tapşırılıb.

Vadim Qocayevin bir qardaşı DSX-də xidmət edir, Azərbaycan Ordusunda həqiqi hərbi xidmətdədir. Vətən müharibəsi iştirakçısı olan Vadimin bir yaşlı qızı var, bu günlərdə onun ikinci övladı dünyaya gələcək...

***

2003-cü il təvəllüdlü əsgər Bəxtiyar Güloğlan oğlu Muradov doğulduğu Sumqayıt şəhərində Şəhidlər xiyabanında dəfn olunub. Dəfn mərasimində Milli Məclisin deputatları Tahir Mirkişili, Müşviq Məmmədli, Emin Hacıyev, həmçinin şəhər rəhbərliyi, hərbçilər və ictimaiyyət nümayəndələri iştirak ediblər.

***

Kiçik çavuş, 1997-ci il təvəllüdlü Nail Adil oğlu Abbaslı doğulduğu Oğuz rayonunun Qarabaldır kənd qəbiristanlığında torpağa tapşırılıb. Dəfn mərasimində rayon rəsmiləri, ictimaiyyət nümayəndələri, hərbçilər iştirak ediblər. Nail nişanlı idi...

***

Baş leytenant Cavidan Zaur oğlu Bədəlov 1996-cı ildə İsmayıllı rayonunun Talıstan kəndində doğulub. Şəhid komandir dünyaya göz açdığı kənddə dəfn olunub. Dəfn mərasimində Cavidanın ailə üzvləri, yaxınları, rayon rəsmiləri, ictimaiyyət nümayəndələri və hərbçilər iştirak ediblər.

***

XTQ-nin giziri, 1991-ci il təvəllüdlü Nəzər Ağacəlil oğlu Əzizov Kürdəmir rayonunda dəfn edilib. 31 yaşlı şəhidimizin nəşi doğulub boya-başa çatdığı Dəyirmanlı kəndindəki Şəhidlər xiyabanında torpağa tapşırılıb. Nəzər Əzizov 2016-cı ilin Aprel döyüşləri və Vətən müharibəsinin iştirakçısı olub. Xidməti dövründə bir neçə medal və fəxri fərmanla təltif edilib. İki övladı yadigar qalıb.



***

XTQ-nin giziri, Cəlilabad rayonunun Əsədli kənd sakini, 1992-ci il təvəllüdlü Səid Sarbala oğlu Həsənovla doğulduğu kənddə torpağa əmanət edilib. Səid Həsənov 44 günlük Vətən müharibəsində də böyük şücaət göstərib və "Döyüşdə fərqlənməyə görə", "İgidliyə görə", Şuşa, Füzuli və Cəbrayılın azad olunmasına görə medalları ilə təltif olunub.

2003-cü il təvəllüdlü Rəşad Ənvər oğlu Qasımovla Cəlilabadın Alar kəndində vida mərasimi keçirildikdən sonra kənd qəbiristanlığında dəfn olunub.

Cəlilabadın daha bir şəhidi 1990-cı il təvəllüdlü baş gizir Nahid Hüseynağa oğlu Məmmədov rayonun Vənlik kəndində torpağa tapşırılıb. Dəfn mərasimində şəhidin yaxınları ilə yanaşı, rayon rəhbərliyi, hərbçilər və ictimaiyyət nümayəndələri iştirak ediblər.

***

Beyləqandan olan şəhid əsgər Mirtalıb Heydər oğlu Ağazadə (1994) rayonun Şəhidlər xiyabanında torpağa tapşırılıb. Dəfn mərasimində rayon İcra Hakimiyyətinin başçısı Asif Ağayev, hüquq mühafizə orqanlarının nümayəndələri, rayon ictimaiyyəti, şəhidin ailə üzvləri və hərbçi dostları iştirak ediblər.



***

Şəhid gizir İsmayıl Məhərrəm oğlu Budaqlı (1998) Sabirabad rayonunda böyük izdihamla son mənzilə yola salınıb. Mərasimdə rayon İcra Hakimiyyətinin, hüquq mühafizə orqanlarının əməkdaşları, rayon sakinləri, veteran və qazilər iştirak ediblər. İsmayıl Budaqlı Axtaçı Muğan kənd qəbiristanlığında torpağa tapşırılıb.

***

Ümid Həsənov Quba rayonunun İsnovqışlaq kəndində torpağa tapşırılıb. Dəfn mərasiminə şəhidin ailə üzvləri, Müdafiə Nazirliyi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, Quba Rayon İcra Hakimiyyətinin əməkdaşları, rayon ictimaiyyətinin nümayəndələri və yerli sakinlər qatılıblar.

***

Ağcabədi rayon sakini, 1998-ci il təvəllüdlü əsgər Emin Elnur oğlu Fərzəliyev rayonun Şəhidlər xiyabanında dəfn olunub. Şəhidin tabutuna sarılmış Azərbaycan bayrağı atası Elnur Fərzəliyevə təqdim olunub.

***



2003-cü ildə anadan olan Tərlan Pərviz oğlu Rzayev Mingəçevir şəhərindəki Şəhidlər xiyabanında torpağa tapşırılıb. Dəfn mərasimində şəhərin icra başçısı İlham İsmayılov, deputatlar Aydın Mirzəzadə, Əli Hüseynli, ictimaiyyət nümayəndələri, şəhidin hərbçi yoldaşları iştirak ediblər. Tərlan yaxın günlərdə hərbi xidmətini başa vurub evə dönəcəkdi. O, Mingəçevirdəki 26 saylı məktəbin məzunu olub.

***

1988-ci il təvəllüdü gizir Asiman Mehman oğlu İmamverdiyev və 1998-ci il təvəllüdlü leytenant Erkin Ədalət oğlu Hüseynov Gəncənin Şəhidlər xiyabanında torpağa tapşırılıblar. Dəfn mərasimində Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Göygöl Rayon İcra Hakimiyyətinin başçısı Elvin Paşayev, YAP Gəncə şəhər təşkilatının sədri Ramil Orucov, Qafqaz Müsəlmanları İdarəsi Qazılar Şurasının üzvü Tahir Abbasov, Gəncədə fəaliyyət göstərən idarə, müəssisə və təşkilat, həmçinin hüquq-mühafizə orqanlarının rəhbərləri, şəhər ictimaiyyətinin nümayəndələri və şəhidlərin ailə üzvləri iştirak ediblər.

Gəncənin Qızılqaya qəsəbəsində şəhid – 1993-cü il təvəllüdlü Üzeyir Sabir oğlu Əliyevlə vida mərasimi keçirilib. Şəhidin cənazəsi Göygöl şəhərinin Şəhidlər xiyabanında dəfn olunub.

***

Əslən Cəbrayıl rayonundan olan leytenant Ravil Mübariz oğlu Hümbətovla (1987) paytaxtın Yasamal rayonunda yaşadığı evdə vida mərasimi keçirilib. Qəhrəman komandir II Fəxri xiyabanda torpağa tapşırılıb. İki azyaşlı övladı yadigar qalıb.

***

1989-cu il təvəllüdlü baş gizir Elnur Faid oğlu Rüstəmov Xaçmazın Əbilyataq kəndində torpağa tapşırılıb. Dəfn mərasimində şəhidin ailə üzvləri və dövlət qurumlarının əməkdaşları, rayon ictimaiyyətinin nümayəndələri və sakinlər iştirak ediblər. Elnur Rüstəmov Vətən müharibəsi iştirakçısı olub. O, torpaqlarımızın azad olunmasında göstərdiyi şücaətə görə "Cəsur döyüşçü", Füzuli, Zəngilan və Kəlbəcərin azad olunmasına görə medalları ilə təltif edilmişdi.

***

Şəhid kapitan Saleh Möhübbət oğlu Qurbanovun (1990) Xızı rayonunun Giləzi qəsəbəsində keçirilən dəfn mərasimində çıxış edənlər qəhrəmanın həyat və döyüş yolundan danışıblar. Şəhidlərimizin qanının yerdə qalmadığı vurğulanıb. Şəhidin cənazəsi doğulub boya-başa çatdığı Giləzi qəsəbə qəbiristanlığında torpağa tapşırılıb. Tabut üzərinə çəkilmiş bayrağımız şəhidin azyaşlı oğluna təqdim edilib.

***

Kəlbəcər rayonundan olan məcburi köçkün, 1999-cu il təvəllüdlü leytenant Ömər Muğan oğlu Şirinov Goranboyun Zeyvə kənd qəbiristanlığında dəfn olunub. Dəfn mərasiminə Goranboy, Kəlbəcər və Xocalı rayonlarının icra başçıları, şəhidin ailə üzvləri, qazilər, hüquq mühafizə orqanlarının əməkdaşları və ictimaiyyət nümayəndələri qatılıblar.



***

Tovuz rayon sakini, 1985-ci il təvəllüdlü baş gizir Firuz Məzahir oğlu Əhmədovla keçirilən vida mərasimində Milli Məclisin deputatları Qənirə Paşayeva, Arzu Nağıyev, rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədov, hüquq-mühafizə orqanlarının rəhbərləri və başqaları iştirak ediblər. Şəhid gizir Tovuz şəhər qəbiristanlığında dəfn olunub.

***

Zərdab rayonunun Kəndəbil kənd sakini, kiçik gizir Fərid Nofəl oğlu Rüstəmov (1993) doğma kəndində son mənzilə yola salınıb. Vida mərasimində hərbiçilər, rayon rəhbərliyi və ictimaiyyət nümayəndələri iştirak ediblər.

***

Baş çavuş, Təbriz Rəhim oğlu Rəhimov (1990) Yevlax rayonunun Gülövşə kəndində torpağa tapşırılıb. Dəfn mərasimində Milli Məclis sədrinin I müavini Əli Hüseynli, Yevlax Şəhər İcra Hakimiyyətinin başçısı Anar Tağıyev, millət vəkili İlham Məmmədov, Dövlət Sərhəd Xidməti Akademiyasının rəisi, general-mayor Aqil Babayev və digər rəsmilər, ictimaiyyət nümayəndələri, şəhidin ailə üzvləri iştirak ediblər. Təbriz Rəhimovun nəşi kənd qəbiristanlığında dəfn olunub.

***

Baş leytenant Əli Cavad oğlu Əliyev Şərur rayonunda dəfn edilib. Şərur rayonunun Yengicə kəndindən olan 1997-ci il təvəllüdlü Əli Əliyev Şərur şəhərindəki Şəhidlər xiyabanında son mənzilə yola salınıb. Mərasimdə rayon rəsmiləri, hərbçilər və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Əli Əliyev Vətən müharibəsində iştirak edərək "Suqovuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" və s. medallarla təltif olunub. O, həmçinin Azərbaycan Ordusunun bu ilin avqustunda keçirdiyi "Qisas" və digər döyüş əməliyyatlarında da igidlik göstərib.

***

Lənkərandan olan 1998-ci il təvəllüdlü gizir Xəyal Əlövsət oğlu Əhədzadə Nərimanabad qəsəbə qəbiristanlığında torpağa tapşırılıb. Xəyal Əhədzadə 44 günlük Vətən müharibəsinin iştirakçısı olub. O, Füzulidən Şuşaya kimi döyüş yolu keçib. Ölkə başçısının müvafiq sərəncamları ilə orden və medallarla təltif edilib.

***

Leytenant Sərxan Ömərov (1999) doğulduğu Zaqatala rayonunun Yuxarı Tala kəndində dəfn edilib. İzdihamlı dəfn mərasimində rayon İcra Hakimiyyətinin, hüquq mühafizə orqanlarının, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rayon bölməsinin rəhbər və əməkdaşları, Müdafiə Nazirliyi, rayon ictimaiyyətinin nümayəndələri, kənd sakinləri, şəhidin doğmaları və döyüş yoldaşları iştirak ediblər.

***

Şəkinin Kiçik Dəhnə kəndindən əsgər Nihad Mehman oğlu Qasımovun (2003) doğulduğu evdə təşkil olunan vida mərasimində ailə üzvləri, yaxınları, Müdafiə Nazirliyi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, Şəki Rayon İcra Hakimiyyətinin əməkdaşları, rayon ictimaiyyətinin nümayəndələri və sakinlər iştirak ediblər. Nihad Qasımov Kiçik Dənhə kəndinin Şəhidlər xiyabanında dəfn olunub.

***

Leytenant Murad İlqar oğlu Rəsulov (2000) Şabran şəhərindəki Şəhidlər xiyabanında dəfn olunub. Dəfn mərasimində bir sıra dövlət qurumlarının nümayəndələri, rayon sakinləri, şəhidin ailə üzvləri iştirak ediblər.

***

Gizir Məhəmməd Bilal oğlu Məmmədov (1995) böyüyüb boya-başa çatdığı Biləsuvar rayonunun Ağalıkənd kəndində torpağa tapşırılıb. Dəfn mərasimində şəhidin doğmaları, kənd sakinləri, rayon rəsmiləri, müharibə veteranları iştirak ediblər. Düşmən təxribatı nəticəsində şəhid olan digər Vətən övladları da son mənzilə yola salınıb.

Ziyarət Mail oğlu Hüseynov doğulduğu Biləsuvar rayonunun Amankənd kənd qəbiristanlığında dəfn olunub. Dəfn mərasimində rayon rəsmiləri, hərbçilər və ictimaiyyət nümayəndələri iştirak edib. 1994-cü il təvəllüdlü Ziyarət Hüseynov XTQ sıralarında kiçik gizir kimi xidmət edib. Qəhrəman şəhidin bir oğlu yadigar qalıb.

Allah bütün şəhidlərimizə rəhmət eləsin.

**Hazırladı: N.Məmmədli**

# "Azərbaycanfilm"in yubileyi ilə bağlı məsələlər müzakirə olunub

2023-cü ildə C.Cabbarlı adına "Azərbaycanfilm" Kinostudiyasının 100, Azərbaycan kinosunun isə 125 illik yubileyidir. Bu münasibətlə silsilə tədbirlər planı layihəsi hazırlanaraq ölkədəki kino təşkilatlarına təqdim olunub.



"Azərbaycanfilm"də tədbirlər planı layihəsinin müzakirəsi məqsədilə görüş keçirilib. Görüşdə Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının (ARKİ) sədri, Xalq artisti Şəfiqə Məmmədova, Azərbaycan Dövlət Film Fondunun direktoru, Əməkdar incəsənət xadimi Cəmil Quliyev, Azərbaycan Kinematoqrafçılar İttifaqının (AKİ) katibi Əli İsa Cabbarov, Nizami Kino Mərkəzinin direktoru Leyli Mirzəyeva, Azərbaycan Professional Kinorejissorlar Gildiyasının direktoru Şahirə Tacəddin və Azərbaycan Prodüserlər Gildiyasının sədri Nəriman Məmmədov iştirak ediblər. Qurumların rəhbərləri təqdim olunan tədbirlər planı ilə bağlı müzakirələr apararaq müvafiq təkliflərini səsləndiriblər.

Görüşdə tədbirlər planını həyata keçirmək üçün təşkilat komitəsinin yaradılması qərara alınıb. Sentyabrın sonuna təyin olunan növbəti toplantıda təşkilat nümayəndələri ilə yanaşı, görkəmli kino xadimlərinin iştirakı da nəzərdə tutulub.

"Azərbaycanfilm – 100" tədbirlər planında əksini tapacaq tədbir və layihələrin müvafiq dövlət və ictimai təşkilatlarla müştərək həyata keçirilməsi qərara alınıb.

Qeyd edək ki, tədbirlər planına daxil olan layihələr arasında filmlərin bərpa-korreksiyası və təbliğatı, nəşrlər, müsabiqələr, dəyirmi masalar, konfranslar və s. əksini tapıb.

**Lalə**

# "Qonağımız var" layihəsində növbəti görüş

Sentyabrın 14-də Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin təşkilatçılığı ilə Nərimanov rayon MKS-nin Mərkəzi Kitabxanasında "Qonağımız var" layihəsi çərçivəsində tanınmış uşaq yazarı Solmaz Amanova ilə görüş keçirilib.

Baş idarədən bildirilib ki, görüşdə kitabxana əməkdaşları, məktəblilər iştirak ediblər.

Tədbirdə şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Görüşdə Solmaz Amanovanın vətənpərvərlik mövzusunda yazdığı "Al beretli qızıl əsgər" adlı yeni kitabı oxuculara təqdim olunub. Müəllif İkinci Qarabağ müharibəsində Azərbaycanın şanlı Qələbəsindən sonra qələmə aldığı "Şuşanın sehrli açarları", "Cəsur ayı və dostları", "İlmənin macəraları" kitabları barədə danışıb.

Solmaz Amanova uşaqlara xalqımızın şanlı tarixi, vətən uğrunda qəhrəman övladlarımızın apardığı mübarizələr, qədim diyarımız Qarabağ, mədəniyyət beşiyimiz Şuşa, danışaraq bildirib ki, biz daim torpaqlarımıza göz dikən düşmənimizi heç zaman unutmamalı, vətənimizin müdafiəsi, azadlığı, çiçəklənməsi üçün güclü olmalıyıq.

Uşaqlara yazıçının yaradıcılığı, həyata keçirdiyi layihələr barədə məlumat verilib.



# Mədəni-kütləvi tədbirlər təxirə salınıb

Sentyabrın 13-dən başlayaraq Ermənistan silahlı qüvvələri bölmələrinin Azərbaycanla sərhəddə törətdikləri genişmiqyaslı təxribat nəticəsində baş verən döyüş toqquşmasında Azərbaycan Silahlı Qüvvələri hərbi qulluqçularının şəhid olması ilə əlaqədar Heydər Əliyev Mərkəzində sentyabrın 17-18-nə planlaşdırılan "Art Festival", eləcə də nəzərdə tutulan digər mədəni-kütləvi tədbirlər təxirə salınıb.

Bu barədə Heydər Əliyev Mərkəzindən məlumat verilib.

Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrı da erməni təxribatı nəticəsində şəhid olan Vətən övladlarının ruhuna ehtiram əlaməti olaraq, yeni mövsümün açılışı ilə bağlı planlarında dəyişiklik edib.

Teatrdan bildirilib ki, sentyabrın 16, 17 və 18-i günlərinə təsadüf edən tamaşaların nümayişi ləğv olunub. Həmin günə bilet alanlar qarşıdakı həftələrdə istənilən tamaşanı izləyə bilərlər.

# Xalça Muzeyinin tədris proqramına qeydiyyat davam edir

Azərbaycan Milli Xalça Muzeyinin "Nənəmin sandığından fashion show" layihəsi çərçivəsində uşaqlar üçün təşkil etdiyi 3 aylıq tədris proqramına qeydiyyat davam edir.



Muzeydən bildirilib ki, proqram müddətində iştirakçılar Qarabağa aid milli geyimlər haqqında nəzəri biliklərə, praktik bacarıqlara yiyələnəcəklər. Tədris proqramını bitirənlərə sertifikatlar təqdim ediləcək və onların hazırladıqları geyimlərdən ibarət moda nümayişi olacaq.

Azərbaycan və rus dillərində keçiləcək dərslərə qatılmaq istəyən 11-18 yaş arası qızlar və oğlanlar sentyabrın 30-dək qeydiyyatdan keçə bilərlər.

Layihə haqqında ətraflı məlumat almaq və qeydiyyatdan keçmək üçün (+99450) 363 43 55, (+99455) 262 81 84 nömrələri ilə əlaqə saxlamaq olar.

# Nizami fəlsəfi dünyasına Firəngiz Əlizadənin çağdaş baxışı



Dünya ədəbiyyatının görkəmli nümayəndəsi, dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin sönməz poetik ruhunun əks olunduğu yaradıcılığı Üzeyir Hacıbəyli, Qara Qarayevdən başlayaraq müxtəlif nəsil Azərbaycan bəstəkarlarının daima müraciət etdikləri sonsuz mənbə olaraq qalır. Xalq artisti Firəngiz Əlizadənin böyük simfonik orkestr və elektron səslər üçün "Nizami Cosmology" ("Nizami fəzası") adlı misteriyası bu sıradandır.

Yunan dilindən tərcümədə "ayin" mənası verən və XIV-XVI əsrlərdə meydana gələn misteriyanın əsasında müxtəlif mədəniyyətlərə aid dini, əfsanə, əsatir mövzularla birbaşa bağlı olan motivlər durur. Musiqidə həmin janrın oxşar cizgiləri XIX əsrin romantizm dövründə, opera janrında (R.Vaqner – "Parsifal", 1882) müşahidə olunur.

XX əsr bəstəkar yaradıcılığında misteriya janrı musiqili səhnə əsərləri (İ.Stravinski – "Müqəddəs bahar" baleti, 1912) ilə yanaşı, simfonik yaradıcılıqda (A.Skryabin – "Prometey" poeması, 1910) da rast gəlinir. Yeri gəlmişkən, XXI əsr müasir musiqi tarixində Firəngiz Əlizadənin "Nizami Cosmology" partiturası Nizami mövzusu ilə bağlı ilk irimiqyaslı kompozisiyadır.

Əsərin dünya premyerası bu il aprelin 6-da Londonda, "Pool" konsert zalında dirijor Kiril Karabitsin (Ukrayna, Fransa) rəhbərliyi ilə "Bournemouth Symphony Orchestra" tərəfindən təqdim olunub. "Şərqdən sədalar" adlı konsert proqramında "Nizami Cosmology" ilə yanaşı, D.Şostakoviçin 12 saylı simfoniyası və Qara Qarayevin "Yeddi gözəl" baletindən süita səsləndirilib. Bununla da, Firəngiz xanım D.Şostakoviçin sənətindən bəhrələnərək formalaşan müəllimi Qara Qarayevin mütərəqqi bəstəkarlıq ənənələrinin davamçılarından olduğunu göstərir. Xüsusi qeyd eləmək istərdim ki, xarici musiqi tənqidçiləri "Nizami Cosmology" əsərini A.Skryabinin "Prometey" və "Vəcdin poeması" ilə müqayisə edirlər.

Əsərin Bakı təqdimatı iyunun 3-də M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında, bəstəkarın müəllif gecəsində, Xalq artisti Fəxrəddin Kərimovun dirijorluğu ilə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin ifasında həyata keçirilib.

İlk xanələrdə qərar tutan musiqinin möhtəşəmliyi fəzanı seyr edən Nizaminin obrazıdır. Şair kainat gözəlliyini dəfələrlə əsərlərində müxtəlif təsvir vasitələri ilə vəsf edir. Onlardan biri "Leyli və Məcnun" poemasında aşağıdakı misralarda əksini tapır:

*Gecə parlayırdı bir gündüz kimi,*
*Göylər təptəzəydi yaşıl düz kimi.*
*Qızıl həmailin şəddələrindən*
*Qızıl geyinmişdi göy üzü, bilsən...*

Partituranın yuxarı registrində kiçik ritmik qruplardan ibarət motivlərin hərəkəti göy üzündə sayrışan ulduzların təsviridir. Xaotik şəkilli musiqi axını "kainat nizamı leytmotivi"nə çevrilməklə növbəti bölmələrin dramaturji konsepsiyasında vacib rol oynayır.

Nizami Gəncəvi dərin ensiklopedik biliyə malik şair kimi elmin müxtəlif sahələrini əhatə edən bir çox alimlərin irsi ilə yaxından tanış olub. Bu baxımdan diqqəti "Xosrov və Şirin" poemasından bu misralara yönəltmək istərdim:

*Xoşbəxtlik iqbalın əlini açdı,*
*Müştəri Zöhrəyə gəlib yanaşdı.*

Qədim fəza cisimləri elminə görə, Müştəri (Yupiter) oğlan, Zöhrə (Venera) isə müvafiq olaraq qızdır. Burada iki ulduzun bir-birilə ünsiyyəti Xosrov və Şirin arasında münasibətlə müqayisə edilir. Firəngiz Əlizadə tərəfindən müvafiq epizodda arfanın müşayiətində klarnetlər və fleytaların ardıcıllaşan dueti səma cisimləri arasında bağlılığa bir işarədir.

Eyni hal növbəti epizodda yaylı alətlərin xəfif mehi xatırladan çalğısı fonunda Məcnunun Leyli ilə səhradakı görüş səhnəsində baş verir. Poemada həmin səhnə bu misralarda əks olunur:

*İki şam bir teştdə yaxıldı, bilsən,*
*Ruhları bir idi, birləşdi bədən.*
*İki sap bir tovda eşilmiş oldu,*
*İki sürahi də bir sudan doldu...*

Sətirlərdən göründüyü kimi, şair sevən gənclərin görüşünü müxtəlif cüt tərkibli ortaq anlayışlarla simvolik müqayisə edir. Bəstəkar isə öz növbəsində həmin sətirlərdə səslənən fikrin məna yükünün açıqlanması baxımından istifadə olunan alətləri harmonik və ya melodik şəkilli birləşmələrdə verir. Belə ki, əvvəlki epizodda bizə tanış duet anlayışı burada, iki qaboyun, ardınca iki klarnetin polifonik çarpazlığında özünü göstərir. Eyni zamanda Piccolodakı fiqurasiyalar ulduzlar leytmotivi olduğu halda, campanelli və silofonun kanonu Müştəri və Zöhrə ulduzlarının simvolik dialoqunun təsviridir. Beləliklə, müəllif hər iki parçada dinləyicinin diqqətini fərqli şəraitdə cərəyan edən hadisələrin ortaq mənasına yönəldirir.

Vibrafonun səs həmləsi ilə arfanın gəzişmələri üzərində qaboyun başladığı soloda Bəhram Gurun bir hücrənin divarlarına həkk edilən rəsmlərdə gördüyü "Yeddi gözəl" sanki canlanır:

*Bir həmail üstə çəkmişdi ustad,*
*Yeddi şux gözəldi, yeddi pərizad.*
*Hər incə təsvirdə min gözəllik var,*
*Gövhərtək hər biri*
*gözəl nur saçar...*

Poemanın məzmununda gözəllərin yaşadığı saraylar – qədim astroloji anlayışa görə, hər birinin öz rəngi olan yeddi planet həftənin bir gününə bağlıdır: 1) Yaşıl saray – Ay – bazar ertəsi; 2) Qırmızı saray – Mərrix (Mars) – çərşənbə axşamı; 3) Mavi saray – Üttarid (Merkuri) – çərşənbə; 4) Səndəl saray – (Müştəri) Yupiter – cümə axşamı; 5) Ağ saray – Zöhrə (Venera) – cümə; 6) Qara saray – Saturn (Zühəl) – şənbə; 7) Sarı saray – Günəş – bazar günü.

Bəstəkar isə öz növbəsində hər xanım obrazın milli kimliyinə uyğun musiqi elementləri ilə qısa təsfirini verir. Məsələn, İran gözəlinin yaşadığı Ağ sarayın cümə günü ilə yanaşı bağlandığı Zöhrə ulduzunu eyni zamanda Yaxın Şərqin klassik şairlərinin əsərlərində göylərin çalğısı da adlandırırlar. Onun mövcudluğu daima şənlik, rifah əlaməti kimi xarakterizə olunur.

"İsgəndərnamə"də həmin məqam "Taleyim açıldı, oldum bəxtəvər, Zəhra dəf göndərdi, Müştəri dəftər...".

"Yeddi gözəl" də isə "Zöhrə Surə keçdi, Müştəri qövsə, Bu ev ziynətlənib, döndü Firdovsə..." kimi vəsf edilir:

"Xəmsə"də bir çox qədim musiqi alətlərinin (təbil, şeypur, ud, setar, saz, rübab, barbəd, cəng, kanon, rud və s.) adları çəkilir. F.Əlizadənin müxtəlif əsərlərinin orkestr düşüncəsində Şərq musiqi alətlərinin natural ifa üsulları ilə yanaşı (məsələn, "Dərviş"), Qərb alətlərinin də imkanlarından bəhrələnən imitasiya variantları ("Abşeron" kvinteti) da tətbiq olunur. "Nizami Cosmology" əsərinin partiturasının ahəng palitrasına vardıqca müəllifin üslubunun təkamülünü müşahidə edirik. İran gözəlinin təsviri ilə bağlı parçada səslənən tamburino Şərq musiqisi üçün xarakterik 6/8 ölçülü ritm cizgilərlə zəngin dəf alətinin çalğı imitasiyasıdır.

Növbəti epizodda litavranın müdaxiləsi ilə yaylı kvintetin aşağı reqisterdən yuxarıya doğru sürətlə hərəkəti əsərin məzmununun yeni ifadə vasitələri ilə zənginləşməsinə sirayət edir. Violonçellərlə eyni anda ağır mis nəfəslilərin fəallığı dramatik inkişafı sürətləndirməyə başlayır. Epizodun başlanğıcında faqot və litavranın unisonunda 6/8 ölçülü ritmik strukturun variantı nəticəsində musiqinin məzmuna dissonans intonasiyalar daxil olur. Ön plana "Yeddi gözəl" poemasından "Xeyir və Şər" hekayəsinin ən dramatik anı – Şərin bir içim su qarşılığında Xeyirin gözlərinin çıxartması ilə yaşanan faciə səhnəsi çıxır:

*Bu halı görüncə siyirib xəncər,*
*Quş kimi şığıdı Xeyrin üstə Şər.*
*Xəncəri çırağa çaldı, qanmadı,*
*Çırağı söndürdü, qəlbi yanmadı...*

Hekayənin davamında səhranın ortasında yaralı Xeyirin bir çobanın "türk baxışlı, xoş hindu xallı" qızı tərəfindən tapılması ilə aralarında başlanan dialoq əvvəlki dramatik parça ilə kəskin təzad təşkil edir. Violinlərin tremolo müşayiətində I qaboyun solosu ilə ara-sıra II qaboyun qlissandosu həmin dialoqun təsviridir. Çelestanın "nizamlı kainat mövzu"sunun əvvəlcə motiv-hissəcik, daha sonra tam şəkildə müdaxiləsi ilə paralel campanellinin nöqtəvarı kontrapunktu fonunda fleytaların "sual-cavab" ünsiyyəti iki sevən gəncin zülmətdən əbədi işığa çıxışını xatırladır.

Əsərin növbəti bölməsində şeypurların fanfarları dinləyiciləri "İsgəndərnamə" poemasında İsgəndərin Dara ilə döyüş səhnəsinin

*...Yollara töküldü dəmirdən tikan*
*Şeypurlar coşduqca*
*qopdu həyəcan.*
*Üz-üzə gəlirdi hər iki ordu,*
*Nə ürəkdə dinclik,*
*nə gözdə uyğu...*

misralarının məna yükünə kökləyir.

Ardınca orkestr unisonların fakturası misralarda təsvir olunan orduların hər ikisində ümumi coşqu və vəhdətin rəmzi simvoludur. Bəstəkar döyüş meydanında duyğusal hisslərin kulminasiyasını tədricən, ifadə vasitələrinin qənaətlə partituraya daxil edərək nail olur. Burada fakturanın fasiləsiz şəkil dəyişmələri gərginliyin artıb-azalmasına hesablanıb.

Məhz bu qayda ilə davam edən dramaturji proseslər söhbət gedən bölmənin kulminasiya zamanını hazırlamağa başlayır. Yaylı kvintetin ardıcıl dalğaları fonunda şeypurlar ilə kiçik təbilin qətiyyətli zərbələri döyüşün şiddətli anının təsviridir. Poemanın

*...Davullar gurlarkən*
*dəhşət verərək,*
*Təbilin dodağından öpürdü fələk",*
*Yaxud: "...O qədər toz qopmuş*
*tərkə, yəhərə,*
*Yer göyə dönmüşüdü,*
*göy isə yerə...*

misrlarında baş verən reallıqların səma cisimlərinin fiziki xassələri ilə müqayisəsini görürük.

İlk iki sətirdə səmaya ucalan təbil zərbələrinin gurultusunu fələyə, başqa sözlə, orbitlərin fasiləsiz dövrünə, növbəti iki misrada isə orduların qarşıdurması nəticəsində əmələ gələn toz dumanın göydəki ulduzlar qədər ölçüyəgəlməzliyinə toxunulur.

Kompozisiyanın final məqamında əsərin sonluğunun maraqlı dramaturji həllini müşahidə edirik. Nizaminin bütün yaradıcılığı boyu insanı saf sevgiylə yoğrulan mənəvi dəyərlərə səsləyən fəlsəfi amalının təməl istinadı ilk dəfə "Sirlər xəzinəsi"ndə əks olunur. F.Əlizadə misteriyanın final hissəsinin dramaturji konsepsiyasını qurarkən "Sirlər xəzinəsi"nin "İnsanın yaranması" adlı hekayəsinin ilk misralarına müraciət edir:

*Göydə yaşayanların*
*ən gözəli, ən xası,*
*Təptəzə yer əhlinin o idi*
*tək aynası.*
*Canının şəkli bildi*
*insanlıq o igidi,*
*Yeddi səma qolunun*
*qızıl bilərziyidi.*
*Çıxdı iki beşikdən -*
*qovuşdu cism ilə can,*
*İki cövhər məğzini*
*mənimsədi ilk İnsan.*

Bəstəkar final bölmədə yuxarıdakı parçanın ənənəvi təvsirindən uzaqlaşaraq sətiraltı məna yükündən doğan motivləri Nizami obrazları ilə əlaqələndirir. Musiqinin tərkibində duran möhkəm ritmtik özək fakturanın dəqiq simmetrik quruluşa malik inkişafına səbəb olur. Yaylı kvintetin diviziyaları fonunda taxta nəfəslilərin triol fiqurasiyaları vasitəsilə "Çıxdı iki beşikdən – qovuşdu cism ilə can" misrasında yerlə göyün fasiləsiz dövrlərinə, "Yeddi səma qolunun qızıl bilərziyidi" fikrində isə musiqi axınının hər dəfə yeddi alət arasında paylaşan polifonik çarpazlaşması müvafiq olaraq planetlərin hərəkətinə eyham vurur.

Belə vəziyyət də davam edən proseslər final hissənin, eynilə bütün konsepsiyanın kulminasiya anını yaxınlaşdırır. Partiturada piramida şəklində alətləşdirmə prinsipinin tətbiqi, natural və xromatik səs laylarının ardıcıl hərəkəti möhtəşəm dramatik partlayışla: "İki cövhər məğzini mənimsədi ilk İnsan" fəlsəfəsinin təntənəsi ilə nəticələnir.

Növbəti epizodda fakturada müşahidə olunan seyrəlmə, çalar dəyişikliyi əsərin əvvəlindən bizə tanış qoşa alətlərin çıxışına səbəb olur. Musiqinin məzmunu kainatda mövcud ulduzların maneyəsiz axarlığından yaranan sakitliyin yerdəki insanlar üzərində hüzurun bərqərar olmasına sirayət etməsinin təsviridir. Əsərin məhz bu tərzdə, sakit koda ilə bitməsi gözləntisinə Firəngiz Əlizadə fərqli yanaşır.

Əsərin əvvəlindən bizə tanış Zöhrə (Venera) planetinin təsvirində müəllif ilkin ritmik səciyyəni 12/8 variantı ilə əvəzləyir. Ardınca partiturada qoşa xüsusiyyətli alətlərin növbələşən müdaxiləsi ilə dinamik canlanma başlayır. Məhz bu zaman F.Əlizadə bəstəsinin əsas qayəsini – lakonik zaman və məkan çərçivəsində Nizami hikmətinin sətiraltı fəlsəfi əqidəsinin özək nöqtəsinin açımını həyata keçirir. Şairin

*Eşqdir mehrabı uca göylərin,*
*Eşqsiz, ey dünya,*
*nədir dəyərin?!*

misralarının məna yükündə bütün gözəlliklər kimi insanın saf məhəbbətdən yarandığını və zəngin mənəviyyatlı şəxsiyyətin kainatın əşrəfi olmaqla bütün ilahi dəyərlərə, həmçinin əsl sevgiyə layiq olduğunu özündə əks etdirir.

Firəngiz xanım şairin yaradıcılığının ana xəttini təşkil edən fəlsəfi əqidəsini simfonik orkestrin bir çox ifadə vasitələri ilə yanaşı elektron səslər kimi müasir ifadə üsullarından istifadə edərək fasiləsiz inkişaf formasında həyata keçirir. XX əsr müasir musiqi sənətində elektron səslər anlayışları fransız əsilli Amerika bəstəkarı Edvard Varezin adı ilə bağlıdır. F.Əlizadə "Nizami Cosmology" partiturasında E.Varezin simfonik orkestrləşdirmə təfəkküründən bəhrələnir.

Kainat göy cisimlərinin hərəkət məkanı kimi deyil, həmçinin idrakın sonsuzluğu simvolu rolunu oynayır. Məhz belə halda Nizaminin saysız-hesabsız sirlərlə dolu hikmət xəzinəsinin kandarından keçərək mənəvi ruhun təkmilləşməsinə yorulmadan çalışan fərdlər kamil insan-şəxsiyyət simasına malik olur. Necə ki, Firəngiz xanımın yeni bəstəsində bunun şahidi oluruq. Arzu edərdik ki, "Nizami Cosmology" müasir musiqi həyatında layiqli yerini tapsın. Sənətsevərlər isə bu musiqi incisi vasitəsilə Nizami yaradıcılığının yeni fikir ənginliklərini kəşf etsinlər.

**Yavər Neymətli**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru**

# Tanınmış musiqi təşkilatçısı İldırım Kasimov dünyasını dəyişib

Azərbaycanın mədəniyyət ictimaiyyətinə itki üz verib. Tanınmış musiqi təşkilatçısı, Əməkdar mədəniyyət işçisi, Prezident təqaüdçüsü İldırım Kasimov sentyabrın 15-də, ömrünün 89-cu ilində vəfat edib.



İldırım Əli-Nazir oğlu Kasimov 7 dekabr 1933-cü ildə Bakı şəhərində anadan olub. 1955-ci ildə Bakı Hərbi Məktəbini, 1969-cu ildə isə İncəsənət İnstitutunun (indiki ADMİU) Mədəni-maarif fakültəsini bitirib.

Əmək fəaliyyətinə 1956-cı ildən başlayan İ.Kasimov Azərbaycan Dövlət Filarmoniyasında inzibatçı, konsert şöbəsinin müdiri, Mahnı və Rəqs Ansamblının direktoru vəzifələrində çalışıb. O, uzun illər görkəmli müğənni və bəstəkar Müslüm Maqomayevin ansamblına rəhbərlik edib. 60-cı illərdə əfsanəvi müğənninin SSRİ respublikalarına qastrol səfərlərinin təşkilatçısı olub. Onlar birlikdə Kremlin Qurultaylar Sarayında "Qəhrəmanlara əbədi xatirə" adlı konsert təşkil ediblər. M.Maqomayev öz kitabında İ.Kasimovu "qastrol ustası" adlandırıb.

İ.Kasimov 1978-2004-cü illərdə "Azərkonsert" Dövlət Qastrol-Konsert Birliyinin baş direktoru kimi bir çox dövlət səviyyəli, beynəlxalq əhəmiyyətli tədbirlərin, yubiley gecələrinin keçirilməsində yüksək peşəkarlıq və təşkilatçılıq qabiliyyəti göstərib. O, Rəşid Behbudov, maestro Niyazi, Tofiq Quliyev, Zeynəb Xanlarova, Çingiz Sadıqov, Alla Puqaçova, Vaxtanq Kikabidze, Gennadi Xazanov, Oleq Tabakov və digər tanınmış sənətkarlarla əməkdaşlıq edib.

İ.Kasimov 2009-2012-ci illərdə Beynəlxalq Muğam Mərkəzinin direktor müavini vəzifəsində işləyib. O, 2006-cı ildə "Əməkdar mədəniyyət işçisi" fəxri adına, 2007-ci ildə Prezident təqaüdünə layiq görülüb.

Tanınmış musiqi təşkilatçısı İldırım Kasimovun əziz xatirəsi musiqisevərlərin və həmkarlarının qəlbində əbədi yaşayacaq.

Allah rəhmət eləsin.

# Tehran Vəliyevin "Dünya ədəbiyyatından nümunələr" kitabı işıq üzü görüb




Tanınmış tərcüməçi, jurnalist, redaktor Tehran Vəliyevin (1954-2015) "Dünya ədəbiyyatından nümunələr" kitabı işıq üzü görüb. Mədəniyyət Nazirliyinin dəstəyi ilə "Aspoliqraf LTD" nəşriyyatında çapdan çıxan kitabın tərtibçisi və redaktoru Rafiq Vəli İmranoğludur.

Kitabda oxucular Tehran Vəliyevin tərcüməsində dünya ədəbiyyatının korifeyləri – F.S.Fiscerald, E.Heminquey, S.Hill, K.S.Duqqal, C.Coys və S.Kinqin əsərləri, ABŞ-ın sabiq prezidenti Ronald Reyqanın həyat yoldaşı Nensi Reyqanın "İndi növbə mənimdir" xatirə-memuarı ilə tanış olacaqlar. Kitabda Tehran Vəliyevin həyat yolundan da söz açılır, Azərbaycan ədəbi ictimaiyyəti nümayəndələrinin mərhum tərcüməçi haqqında xatirələri yer alıb.

Tehran Vəliyev uzun illər bədii tərcüməçilik və redaktorluq fəaliyyəti göstərib, ingilis dilindən C.D.Selincer, U.Folkner, E.Heminquey, F.S.Fitscerald və başqa yazıçıların əsərlərini, eləcə də rus və türk dillərindən bir sıra siyasi, elmi, pedaqoji ədəbiyyat nümunələrini Azərbaycan dilinə çevirib. O, onlarla kitab, tədris proqramı və məqalələr toplusunun redaktoru olub. Jurnalistika və nəşriyyat işi sahəsində müxtəlif vəzifələrdə işləyən T.Vəliyev 2001-ci ildən ömrünün sonuna – 2015-ci ilədək Mədəniyyət Nazirliyində çalışıb, şöbə müdirinin müavini, sektor müdiri olub.

# Zəhmət və şöhrət dolu ömür yolu

**Bağır Seyidzadə – 110**

Mədəniyyət tariximizdə iz qoymuş insanlardan söz düşəndə ilk xatırlananlardan biri jurnalist, diplomat, nazir və tərcüməçi Bağır Seyidzadədir. Qeyri-adi əməksevərliyi, dəyərli əməlləri ilə diqqəti cəlb edən mədəniyyət xadimini anadan olmasının 110 illiyi münasibətilə yada salaq.

Bağır Mirqasım oğlu Seyidzadə 1912-ci ildə Azərbaycanın elm və mədəniyyət mərkəzlərindən olan İrəvan şəhərində dünyaya göz açıb. 1918-ci ildə şəhərdə erməni millətçilərinin azərbaycanlı əhaliyə qarşı qırğınları başlayandan sonra ailəsi Tiflisə köçür. 1924-cü ildə Bağırın anası Xədicə xanım vəfat edir və ailə bir il sonra Bakıya köçür.

Bağır Seyidzadə H.Z.Tağıyev adına Toxuculuq Fabrikində işə düzəlir, təhsilini isə fəhlə fakültəsində davam etdirir. 1930-cu ildə məzun olub "Kəndli" qəzeti redaksiyasında korrektor kimi işə başlayır. O, işləyə-işləyə sənədlərini Azərbaycan Sənaye İnstitutuna (indiki ADNSU) verir. 1936-cı ildə "Gənc işçi" qəzetinə redaktor təyin olunur. Bir müddət sonra Respublika Komsomolu Mərkəzi Komitəsində ideologiya üzrə katib seçilir. 1941-ci ildə Azərbaycan SSR Ali Sovetinin sədri Əziz Əliyevin başçılıq etdiyi böyük bir qrupla İrana gedir. Qrup üzvlərindən İranda diplomat kimi işləmək üçün kadr seçimində Ə.Əliyev fərdi keyfiyyətləri ilə diqqəti çəkən Bağır Seyidzadənin üzərində dayanır. Beləliklə, o, Moskvaya SSRİ Xarici İşlər Nazirliyinin nəzdindəki Ali Diplomatiya Məktəbinin altıaylıq kursuna göndərilir. Təhsilini fərqlənmə diplomu ilə başa vuran Bağır Seyidzadə 1944-cü ildə SSRİ diplomatı kimi İrana göndərilir.

Bir müddət Maku şəhərində işləyir. Təbrizdə vitse-konsul, daha sonra baş konsul təyin edilir. Təbriz şəhərində konsulluq bağlandıqdan sonra Azərbaycana qayıdır.

Xalq yazıçısı Qılman İlkin xatirələr kitabında yazır: "Biz Təbrizdə Mirzə İbrahimovun rəhbərliyi altında ərəb əlifbası ilə "Vətən yolunda" qəzetini nəşr edirdik. Bağır Seyidzadə isə oraya diplomatik işə göndərilmişdi. Biz tez-tez görüşürdük. Ya biz onun yanına gedir, ya da o özü Təbrizdə bizə baş çəkirdi. Öz işindən maraqla danışırdı. Cənubi Azərbaycanda Milli Hökumətin qurulmasında onun böyük xidməti vardı. Hətta Milli Hökumət onu "21 Azər" medalına da layiq görmüşdü".

Bir müddət sonra Moskva Bağır Seyidzadəni təcrübəli bir diplomat kimi Türkiyəyə göndərmək fikrinə düşsələr də, respublikanın rəhbəri Mircəfər Bağırov onun Bakıda qalmasını istəyir.

Bağır Seyidzadə 1949-cu ilin fevralında Azərbaycan SSR-in kinematoqrafiya naziri təyin edilir. İlk gündən kinematoqrafiya ilə bağlı problemlərin həlli istiqamətində



addımlar atır. Bakı Kinostudiyasında neftçilərdən bəhs edən "Bakının işıqları" bədii filmi, habelə müxtəlif mövzularda "Böyük yol", "Hədiyyə xalçası", "Quba bağlarında", "Tərtərçay vadisində", "Mingəçevir", "Sovet Naxçıvanı", "Gədəbəyin sərvəti", "Abşeronun ocaqları", "Səhər nəğməsi", "Sovet Azərbaycanı", "Azərbaycanın müalicə ocaqları", "Elmlə dostluq şəraitində", "Arazın sahillərində", "Gözlərinizi qoruyun", "Xəzər neftçiləri haqqında dastan" və digər sənədli və elmi-kütləvi filmlər çəkilir. "Sovet Azərbaycanı" sənədli filmi 1951-ci ildə Kann Kinofestivalında xüsusi mükafata layiq görülür. "Xəzər neftçiləri haqqında dastan" və "Dənizi fəth edənlər" sənədli-bədii filmlərinə görə yaradıcı qrupun bir neçə üzvü Lenin mükafatı alır. "Dənizi fəth edənlər" filmi həm də I Moskva kinofestivalında gümüş medalla mükafatlandırılır.

B.Seyidzadə kinematoqrafiya naziri kimi bir çox uğurlara imza atsa da, 1951-ci ilin fevralında tutduğu vəzifədən azad edilir. Sonra Radioinformasiya Komitəsində fars redaksiyasına işə götürülür. 1953-cü ildə Radioinformasiya baş idarəsində müavin vəzifəsinə irəli çəkilir. Çox keçmir ona Poliqrafiya və Nəşriyyat İdarəsi yaratmaq işi tapşırılır. İdarə 1958-ci ildə respublikanın Mədəniyyət Nazirliyinə birləşdirilir və B.Seyidzadə nazir müavini təyin olunur.

Bağır Seyidzadə nazir müavini işləyə-işləyə qələmini tərcümə sahəsində də sınayır. O, "Görkəmli adamların həyatı" silsiləsindən Natalya Muravyovanın "Viktor Hüqo", Leopold İnfeldin "Evarist Qalua", İohan Pestalotsinin "Seçilmiş pedaqoji əsərləri" kitablarını Azərbaycan dilinə tərcümə edir. Ancaq onun bu uğurları bəzi müasirlərini narahat edir. Mərkəzi Komitəyə anonim məktublar yazırlar...

Qılman İlkin xatirələrində bu məsələyə də toxunur: "Hamı bilirdi ki, onun bir dəqiqə də olsun boş vaxtı olmur. Yarımçıq işlərini bitirmək üçün işdən sonra da idarədə qalır. Gecələr isə yuxunu israfçılıq sayaraq bədii tərcümə ilə məşğul olur. Ailəsinin korluq çəkməsinə imkan vermir. Bu da həmkarlarında paxıllıq hissi doğurur. Onlar nəyin bahasına olursa-olsun, ona zərbə vurmağa çalışırdılar...". Nəhayət, B.Seyidzadə tutduğu vəzifədən çıxarılır.

Azərbaycan tərcümə məktəbinin yaradıcıları arasında B.Seyidzadənin adı hörmətlə çəkilir. "Azərinform"un (indiki AZƏRTAC) baş direktoru Yefim Qurviç onu tərcüməçi yox, "pulemyotçu" deyə çağırırmış. Çünki B.Seyidzadə tərcümə zamanı mətni birbaşa, çox sürətlə və yüksək keyfiyyətlə makinaçıya diktə edirmiş.

1963-cü ildə B.Seyidzadə "Azərinform" baş direktorunun müavini vəzifəsinə təyin olunur. Çoxşaxəli fəaliyyəti yüksək qiymətləndirilir, respublikanın "Əməkdar mədəniyyət işçisi" fəxri adına və "Qırmızı Əmək Bayrağı" və "Şərəf" ordenləri ilə təltif edilir.

Ölkəmizin ictimai-mədəni həyatında dərin iz qoyan Bağır Seyidzadə 24 mart 1968-ci ildə, yaratmaq həvəsinin aşıb-daşdığı bir vaxtda, 56 yaşında Bakıda vəfat edib.

**Savalan Fərəcov**

# Tarix Muzeyində XVIII əsrə aid nadir kitab qorunur




Milli Azərbaycan Tarixi Muzeyinin "Nadir kitablar" fondunda müxtəlif dövrləri əhatə edən dəyərli nümunələr qorunur.

Muzeydən bildirilib ki, belə nümunələrdən biri XVIII əsrə aid "Misirlilər, karfagenlilər, assuriyalılar, babillilər, midiyalılar, farslar, makedoniyalılar və yunanlar haqqında qədim hekayə" (Sankt-Peterburq, İmperator Elmlər Akademiyası, 1749) adlı nadir nüsxədir. Kitabın müəllifi, fransız yazıçı Şarl Rollen oxuculara bu xalqların qədim tarixini, onların ictimai-iqtisadi vəziyyətini, Misir fironlarının yürüşləri və qədim Misir cəmiyyətinin etnoqrafik təsvirini geniş şəkildə təqdim edir.

Sankt-Peterburqda nəşr olunan kitab fransız dilindən Vasili Trediakovski tərəfindən rus dilinə tərcümə edilib.

# Qaranlığa meydan oxuyanlar...

## Şuşanın teatr-sənət tarixini vərəqləyərkən

Şuşa və onun teatr mühiti barədə danışarkən ilk növbədə dövrün görkəmli ədəbiyyat, elm, mədəniyyət, musiqi xadimlərini xatırlamalıyıq. Çünki məhz onların fədakarlıqları sayəsində Şuşada yaradılan, təşəkkül tapan teatrın köklü ənənələri sonradan xələflər tərəfindən inkişaf etdirildi yaşadıldı.

Təsadüfi deyil ki, sonralar yaradıcılığın müxtəlif sahələrində adlarını tarixə yazmış əksər şuşalı mədəniyyət xadimlərinin həyat yolunun ilk mərhələsi teatr səhnəsindən keçib. Bu mənada o mühitdə yetişən Firidun bəy Köçərli, Əbdürrəhim bəy Haqverdiyev, Üzeyir Hacıbəyli, Soltan Hacıbəyov, Süleyman Sani Axundov, Nəcəf bəy Vəzirov, Haşım bəy Vəzirov, Salah bəy Zöhrabbəyov, Rəsul Tahirov, Azad Əmirov, Bədəl bəy Bədəlbəyov, Əbülfət Vəliyev, Zülfüqar Seyidbəyov, Məmmədəli Orucov, Zülfüqar Hacıbəyov, Həmid Axundov, Musa Şuşinski, Surxay Abdullayev, Mirzə Ələkbər Axundov, Cavad bəy Vəzirov, Xosrov və Hüsü Mamayevlər və başqalarının adları teatr tariximizdə də hörmətlə çəkilir.

Şuşanın teatr mühiti deyəndə, təbii ki, adı ilk ağlımıza gələn görkəmli yazıçı-dramaturq Ə.Haqverdiyev olur. Teatra, səhnəyə sonsuz sevgisi hələ uşaqlıqdan baş qaldıran Əbdürrəhim bəy bu barədə xatirələrinin birində qeyd edir: "1884-cü ildə 14 yaşımda ikən bir dəfə teatra getdim. Mirzə Fətəlinin "Xırs-quldurbasan" pyesini oynayırdılar. Teatrda pərdə açılanda mən bu əqidədə idim ki, fokus göstərəcəklər. Pərdə açıldı, bir də baxdım ki, müəllimim Yusif bəy əynində çuxa, başında buxara papaq, belində xəncər, əlində tüfəng səhnədə dayanıb igidlikdən dəm vurur. Get-gedə tanıdığım müəllimlərimin birini arvad libasında görüb teatrın və komediyanın nə olduğunu anladım...".

Elə o vaxtdan həyatında teatr adlı ayrı bir səhifə yaradan böyük yazıçı ömrünün sonunadək teatra bağlı olub. Öz bilik və bacarığını, işıqlı düşüncələrini xalqının mənəvi dünyasının zənginləşməsinə, şüurunun oyanışına sərf edən edib neinki Şuşada, Ağdamda, Gəncədə və həmçinin Bakıda da teatr sənətinin inkişafına töhfələr verib. Onun qələmə aldığı "Yeyərsən qaz ətini, görərsən ləzzətini", "Dağılan tifaq", "Bəxtsiz cavan", "Pəri cadu", "Hacı Daşdəmir", "Ağa Məhəmməd şah Qacar", "Ac həriflər", "Kimdir müqəssir?", "Vaveyla", "Köhnə dudman" kimi bir-birindən maraqlı pyesləri yazıldığı ilk vaxtlardan bu günədək teatrlarımızın repertuarlarını bəzəməkdədir.

Əbdürrəhim bəy və ümumən həmin dövrün gənc aydınlarının qəlbində teatra sevgi toxumunu səpən bir ad da var. O, dövrünün görkəmli pedaqoqu Yusif bəy Məlik Haqnəzərovdur. Şuşalı sənət-səhnə sevdalısı Yusif bəyi şagirdi Ə.Haqverdiyevin bir xatirəsi ilə yad etməyə çalışacağam. O yazır: "Realnı məktəbdə oxuyarkən yenə hər yay Yusif bəyin kontoruna gedirdim. Yusif bəy mütəəssib (təəssübkeş – red.) bir teatro həvəskarı idi... Şagirdlərini də teatr tərəfə təşviq edirdi. Və mənim teatroya həvəsim onun təşviqi sayəsində başlanıb getdikcə artdı. Axır vaxtlarda Yusif bəylə aramızda sıx bir rəfaqət var idi və qocalığına baxmayaraq, mənim əsərlərimdən rollar götürüb gözəl oynayırdı".



Şuşalı bir çox ziyalıların müəllimi olmuş Y.M.Haqnəzərov məktəbdə riyaziyyatdan dərs deməklə yanaşı, həm də şəhər dumasının üzvü idi.

Şuşa teatrının təşəkkülü tarixində Mirzə Muxtarın da öz yeri var. O, istedadlı musiqiçi, eyni zamanda aktyor idi. Teatrda ilk müstəqil addımını 1870-ci ildə atараq, Şuşadakı "Hacıqululların zalı"nda M.F.Axundzadənin "Hacı Qara" komediyasını tamaşaya qoyur. Lakin müəyyən səbəblərdən tamaşa uğursuzluğa düçar olur. Mirzə Muxtar ruhdan düşmür və 1873-cü ildə həvəskar dostları ilə birgə bu tamaşanı yenidən oynayır. Xurafatı, geri fikrə qarşı kəskin mövqeyi olan aktyorun son tamaşası onun sənət taleyində dönüş yaradır. 1883-cü ildə Şuşada H.Vəzirovun "Evlənmək bir stəkan su içmək deyil" əsərinin tamaşası oynanılır. Əsərin mətninə uyğun olaraq tamaşada "Həzrət Abbas" adını çəkən aktyor böyük təzyiqə məruz qalır. Tamaşa yarımçıq kəsilir, iştirakçılar qaçmalı olurlar. Beləcə, Mirzə Muxtar da doğma şəhərindən didərgin düşür. Ağdamda, sonra Gəncədə gizlənməli olur. Bir müddət Tiflisdə müəllimlik edir. 1899-cu ildə Bakıya köçən Mirzə Muxtar burada da pedaqoq kimi fəaliyyət göstərir.

1908-ci ildə Ü.Hacıbəylinin "Leyli və Məcnun" operasının ilk tamaşasında Məcnunun atası rolunu oynamaq üçün teatra dəvət olunan Mirzə Muxtar ömrünün sonunadək (1929) teleyini səhnəyə bağlayır.

Şuşa teatrının aktyor truppasının zənginləşməsində Əbülfət bəy Məmmədhəsən bəy oğlunun (Əbülfət Vəliyev) da payı var. O, istedadlı, mütərəqqi düşüncəli bir aktyor, bacarıqlı rejissor və təşkilatçı olub. Sənətkar məşhur faciə aktyorumuz Hüseyn Ərəblinskinin istedadının üzə çıxarılmasında, onda mütərəqqi ideyalara meylin gücləndirilməsində də mühüm rol oynayıb.

Görkəmli yazıçı-jurnalist, pedaqoq Haşım bəy Vəzirovun da yaradıcılıq yolunda Şuşa teatrı ayrıca bir xətt ilə keçir. O, Şuşanın teatr mühiti ilə sıx bağlı idi. Ədibin "Məktəb tərbiyəsi", "Evlənmək su içmək deyil", "Döymə qapımı, döyərlər qapını" əsərləri uzun müddət Şuşa səhnəsində oynanılıb. H.Vəzirov həm də V.Şekspirin "Otello" faciəsinin dilimizə ilk tərcüməçisidir.

Görkəmli dramaturq, Azərbaycan ədəbiyyatında faciə janrının ("Müsibəti-Fəxrəddin") yaradıcısı Nəcəf bəy Vəzirovun teatr tarixində xüsusi yeri var. 1873-cü ildə Bakıda Həsən bəy Zərdabi və digər ziyalılarla birgə Mirzə Fətəlinin "Lənkəran xanının vəziri" əsərini səhnələşdirməklə professional Azərbaycan milli teatrının özülünü qoyan Nəcəf bəy gənc yaşlarından teatra bağlı olub. Bir vaxtlar həvəskar kimi teatr tamaşalarında aktyor-rejissor kimi iştirak etmiş N.Vəzirov Mirzə Fətəlinin təsiri ilə "Əti sənin, sümüyü mənim", "Ev tərbiyəsinin bir şəkli", "Nə əkərsən, onu da biçərsən", "Dəldən atılan daş topuğa dəyər", "Sonrakı peşmançılıq fayda verməz", "Vay şələküm-məlləküm", "Yağışdan çıxdıq, yağmura düşdük" kimi komediyalar da qələmə alıb, teatrlarımızın milli repertuarını zənginləşdirib.

Şuşanın teatr həyatını, daha doğrusu, ömrünü onun teatr səhnəsinə həsr edənləri xatırlayıb araşdırarkən qarşıma maraqlı faktlar da çıxdı. Yazını teatr tədqiqatçısı Yaqub Əlioğlunun "Şuşa teatrı" kitabından bir neçə faktla yekunlaşdırmaq istəyirəm. Kitabda Ə.Haqverdiyevin rejissor və təşkilatçı kimi teatr səhnəcikləri hazırlamaqla yanaşı, Şuşada həm də ilk dəfə olaraq "Şərq konsertləri" təşkil etdiyi qeyd olunur. Bildirilir ki, bu səhnəciklər və konsertlər xalqı teatra yaxınlaşdırmaqla onların zövqünü də formalaşdırırdı. 1897-ci ildə Ə.Haqverdiyevin təşəbbüsü ilə Şuşada göstərilən Füzulinin "Leyli və Məcnun"undan bir parça – "Məcnun Leylinin qəbri üstündə" səhnəciyi sonralar Azərbaycan musiqili teatr tarixində mühüm rol oynayıb. Məşhur xanəndə Cabbar Qaryağdıoğlunun Məcnun rolunda başına quş yuvası qoyub səhnədə oxuması bütün Şuşanı lərzəyə gətirib. O cümlədən həmin səhnədə pərdə arxasında xorda oxuyan balaca Üzeyir Hacıbəyli bu hadisədən ömürlük təsirlənib və sonralar ilk milli operanı yaradıb. Bu, təsadüf idi, yoxsa zərurət?! Dövr və zaman təsdiqlədi ki, əlbəttə, zərurət idi. Amma bu hadisənin beşiyi başında duran səbəbkar Ə.Haqverdiyevi daima minnətdarlıq hissi ilə anmaq lazımdır. Sonralar Şuşada Əlişir Nəvainin "Fərhad və Şirin" poemasından da bir səhnəcik göstərilib, Fərhadı Cabbar Qaryağdıoğlu oynayıb.

Kitabda Mirzə Cəlilin "Ölülər" tragikomediyasının Şuşada nümayişi barədə də qeydlər var. Bildirilir ki, bu məşhur pyes 1916-cı il avqustun 17-də Şuşada, Xurşidbanu Natəvanın qızı Xanbikənin evində yerləşən məktəbdə tamaşaya qoyulub. Bu tamaşadan sonra Mirzə Cəlil mollaların qəzəbinə tuş gəlib...

Şuşanın teatr-sənət mühiti bütövlükdə Azərbaycan səhnəsinin inkişafına əvəzsiz töhfələr verib. İnanırıq ki, bir qərinəlik məcburi fasilədən sonra bu köklü ənənələrin bərpası mümkün olacaq...

**Həmidə Nizamiqızı**

# ADMİU yeni tədris ilində yubileyini qeyd edəcək

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində (ADMİU) 2022-2023-cü tədris ilində Elmi şuranın ilk iclası keçirilib.

Rektor Ceyran Mahmudova bu tədris ilinin universitet üçün əhəmiyyətindən bəhs edərək, 2023-cü ildə ADMİU-nun 100 illik yubileyinin qeyd ediləcəyini deyib.

Rektor yubiley ərəfəsində Nazirlər Kabinetinin universitetlə bağlı qərarının ali məktəb üçün həm sevindirici, həm də məsuliyyətli olduğunu bildirib. Diqqətə çatdırılıb ki, Nazirlər Kabinetinin 2022-ci il 12 avqust tarixli qərarına əsasən, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti publik şəxsə çevrilib. Rektor bununla bağlı 2022-2023-cü tədris ilində universitet kollektivi qarşısında duran vəzifələr haqqında danışıb.

İclasda 2022-2023-cü tədris ili üçün bakalavriat və magistratura pillələrinə tələbə qəbulunun, yay semestrinin nəticələri, ADMİU-da fəlsəfə və elmlər doktoru proqramları üzrə doktorantura və dissertanturaya qəbul və digər məsələlər müzakirə edilib.

# — Kimya dərsimiz harada olacaq? — Şuşada!

ADA Məktəbi yeni tədris ilinə yeniliklə başlayıb. Məktəbin sinif otaqlarına 44 günlük Vətən müharibəsi nəticəsində azad olunmuş rayon və şəhərlərin simvolik adları verilib. Artıq sinif otaqlarının qapılarında otağın nömrəsi ilə yanaşı, "Şuşa", "Laçın", "Zəngilan", "Kəlbəcər" və digər işğaldan azad olunmuş şəhər və rayonlarımızın, tarixi məkanlarımızın adlarını görmək mümkündür. Məktəbdəki bu yeniliyin əsas təşəbbüskarı tələbə xidmətləri və təlim-tərbiyə üzrə menecer Samir Cavadovdur.




ADA Məktəbinin administrativ heyəti tərəfindən irəli sürülən bu təşəbbüsün ADA Universiteti tərəfindən müsbət qarşılandığını bildirən universitetin akademik işlər üzrə prorektoru Vəfa Kazdal deyib: "Əslində, ADA Universitetində müəyyən otaqlara simvolik adların verilməsi təcrübəsi yeni deyil. Hazırda ADA Universitetində "Abşeron", "Karvansara", "Məclis" otaqları mövcuddur. İndi isə sinif otaqlarımıza azad edilmiş torpaqlarımızın, rayon və şəhərlərimizin, tarixi məkanlarımızın adlarını verməklə, onlara həmin məkanların ruhunu vermiş oluruq, sanki oradakı ab-havanı burada canlandırırıq. Eyni zamanda şəhidlərimizin qanı bahasına geri alınmış torpaqlarımızı, möhtəşəm Qələbəmizi, şanlı tariximizi şagirdlərimizə hər zaman xatırlatmış oluruq".

Sinif otaqlarına işğaldan azad edilmiş ərazilərin adlarının verilməsinin şagirdlər tərəfindən də sevinclə qarşılandığını qeyd edən Samir Cavadov təşəbbüslə bağlı düşüncəsini bu sözlərlə ifadə edib: "ADA Məktəbində tənəffüs vaxtı idi. Müəllimlərlə söhbət etdiyimiz zaman bir neçə şagird dəhlizdə yanımızdan keçdi. Şagirdlərdən biri digərindən soruşdu:

– Kimya dərsimiz harada olacaq?

İrəlidə gedən şagird arxaya boylanaraq ucadan cavab verdi:

– Şuşada!".

## Xatirə təqvimi — 17-20 sentyabr

### Azərbaycan

**17 sentyabr 1946** – Xalq artisti, müğənni Səməd Səmədov (1946 – 24.7.2021) anadan olub. Toy və şənliklərdə populyar mahnıların ifaçısı kimi tanınıb.

**17 sentyabr 1956** – Rəssam, heykəltəraş Müslüm Ömər oğlu Eldarov (1956–2003) Bakıda doğulub. Bakı İncəsənət Mərkəzinin ("Yeni Gallery") yaradıcılarından biri olub.

**17 sentyabr 2004** – Teatr rejissoru, Əməkdar incəsənət xadimi Məbud İbrahim oğlu İsmayılzadə (24.3.1927 – 2004) vəfat edib. Lənkəran Dram Teatrının bədii rəhbəri və direktoru olub.

**17 sentyabr 2014** – Xalq artisti, vokal ifaçısı Eldar Balağa oğlu Axundov (15.3.1949 – 2014) vəfat edib. Müdafiə Nazirliyinin Nümunəvi Hərbi Orkestrinin solisti olub.

**18 sentyabr 1885** – Dahi bəstəkar, dramaturq, publisist, pedaqoq, Azərbaycanın və SSRİ-nin Xalq artisti, akademik Üzeyir Əbdülhüseyn oğlu Hacıbəyli (1885 – 23.11.1948) anadan olub. Azərbaycan professional musiqisinin banisi, müsəlman Şərqində ilk operanın ("Leyli və Məcnun", 1908), ilk operettanın ("Ər və arvad", 1910) yaradıcısıdır. "O olmasın, bu olsun", "Arşın mal alan" operettalarının, "Əsli və Kərəm", "Koroğlu" operalarının, Azərbaycanın Dövlət himninin, romans və mahnıların müəllifidir. Bəstəkarın doğum günü milli musiqi bayramı kimi qeyd olunur.

**18 sentyabr 1885** – Bəstəkar və dirijor, Əməkdar incəsənət xadimi Müslüm (Əbdülmüslüm) Məhəmməd oğlu Maqomayev (1885 – 28.7.1937) anadan olub. Üzeyir Hacıbəylinin yaxın sənət arxadaşı kimi Azərbaycan peşəkar musiqili teatrının yaranmasına töhfələr verib. "Şah İsmayıl", "Nərgiz" operaları və s. əsərlərin müəllifidir. Opera və Balet Teatrının dirijoru, Azərbaycan Radiosunun musiqi şöbəsinin rəhbəri olub, "Radio marşı"nı yazıb.

**18 sentyabr 1908** – Əməkdar mədəniyyət işçisi Məmməd Şahverdi oğlu Əmirov (1908-1986) Ağdam rayonunun Novruzlu kəndində doğulub. Füzuli və Ağdam teatrlarında aktyor, direktor işləyib.

**18 sentyabr 1978** – Görkəmli aktyor, rejissor, Azərbaycanın və SSRİ-nin Xalq artisti Adil Rza oğlu İsgəndərov (5.5.1910 – 1978) vəfat edib. Milli Dram Teatrının baş rejissoru, "Azərbaycanfilm"in direktoru işləyib.

**18 sentyabr 1988** – XX əsr Azərbaycan poeziyasının parlaq nümayəndəsi Məhəmmədhüseyn Şəhriyar (1905-1988) vəfat edib. Şair Təbriz yaxınlığındakı Xoşnigab kəndində doğulub, dəqiq təvəllüdü məlum deyil. Doğma Azərbaycan dili ilə yanaşı, fars dilində də şeirlər qələmə alıb.

**18 sentyabr 1994** – Bakıda böyük dirijor və bəstəkar, SSRİ Xalq artisti Niyazinin (Niyazi Zülfüqar oğlu Hacıbəyov-Tağızadə) xatirə muzeyi açılıb. Mərasimdə Prezident Heydər Əliyev iştirak edib.

**18 sentyabr 1995** – Prezident Heydər Əliyev Üzeyir Hacıbəylinin şərəfinə 18 sentyabr – "Üzeyir Musiqi Günü"nün qeyd olunması haqqında fərman imzalayıb. Həmin gün dahi bəstəkarın 110 illiyi təntənəli mərasimlə qeyd olunub.

**18 sentyabr 2013** –Heydər Əliyev Fondunun dəstəyi ilə yaradılan Quba Soyqırımı Memorial Kompleksinin açılışı olub. Memorial kompleks 1918-ci ildə erməni silahlı dəstələrinin Qubada qətlə yetirdikləri dinc əhalinin basdırıldığı kütləvi məzarlıq yerində yaradılıb.

**19 sentyabr 1973** – Tanınmış teatrşünas və ədəbiyyatşünas, Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü Cəfər Həşim oğlu Cəfərov (7.9.1914 – 1973) vəfat edib. "Rejissor sənəti", "Azərbaycan Dram Teatrı" və s. kitabların müəllifidir.

**19 sentyabr 1992** – Görkəmli şərqşünas, filologiya elmləri doktoru adını almış ilk azərbaycanlı qadın-ərəbşünas, professor Aida Nəsir qızı İmanquliyeva (10.10.1939 – 1992) vəfat edib. Yeni dövr ərəb ədəbiyyatına dair tədqiqatların müəllifidir. Azərbaycan EA Şərqşünaslıq İnstitutunun direktoru olub.

**19 sentyabr 1995** – SSRİ Xalq artisti, bəstəkar Rauf Soltan oğlu Hacıyev (15.5.1922 – 1995) vəfat edib. Operettaların ("Romeo mənim qonşumdur", "Dördüncü fəqərə", "Yolayrıcında"), simfonik əsərlərin, oratoriya və kantataların, populyar mahnıların müəllifidir. Filmlərə ("Bir qalanın sirri", "Əhməd haradadır?" və s.) musiqi yazıb. 60-cı illərdə Azərbaycanın mədəniyyət naziri işləyib.

**19 sentyabr 2011** – Bakıda görkəmli bəstəkar, Azərbaycanın və SSRİ-nin Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, Dövlət mükafatları laureatı Fikrət Əmirovun abidəsinin (heykəltəraş – Namiq Dadaşov) açılışı keçirilib. Mərasimdə Prezident İlham Əliyev iştirak edib.

**19 sentyabr 2016** – Əməkdar incəsənət xadimi, televiziya rejissoru Ələkbər Rauf oğlu Kazımovski (10.7.1953 – 2016) vəfat edib.

**20 sentyabr 1918** – Əməkdar incəsənət xadimi, sənətşünaslıq doktoru, respublika Dövlət mükafatı laureatı Mürsəl Nəcəfqulu oğlu Nəcəfov (1918-1997) anadan olub. Azərbaycan Rəssamlar İttifaqı İdarə heyətinin katibi işləyib.

**20 sentyabr 1993** – Kinorejissor, Azərbaycanın və SSRİ-nin Xalq artisti Əjdər Mütəllim oğlu İbrahimov (29.4.1919 – 1993) vəfat edib. Bakı Kinostudiyasında, "Mosfilm"də işləyib. Filmləri: "Onun böyük ürəyi", "Ulduzlar sönmür", Məhəbbətim mənim, kədərim mənim" (SSRİ-Türkiyə) və s.

### Dünya

**17 sentyabr 1908** – Amerika yazıçısı, detektiv romanlar müəllifi Con Krizi (John Creasey; 1908-1973) anadan olub.

**17 sentyabr 1931** – İtalyan əsilli Amerika aktrisası, "Oskar" laureatı Enn Benkroft (Anne Bancroft – Anna Maria Louisa Italiano; 1931-2005) anadan olub. Filmləri: "Məzun", "Nazaretli İsa", "Əsgər Ceyn" və s.

**17 sentyabr 1939** – Tanınmış rus aktyoru və rejissoru, Rusiyanın Xalq artisti Vladimir Valentinoviç Menşov (1939 – 5.7.2021) Bakıda anadan olub. Filmləri: "Moskva göz yaşlarına inanmır" ("Oskar" mükafatı, 1981), "Məhəbbət və göyərçinlər" (hər ikisində rejissor və aktyor) və s.

**18 sentyabr 1905** – Dünya şöhrətli İsveç və Amerika kinoaktrisası, fəxri "Oskar" laureatı Qreta Qarbo (Greta Garbo – Greta Lovisa Gustafsson; 1905-1990) anadan olub. Filmləri: "Qrand-hotel", "Mata Hari", "Anna Karenina" və s.

**19 sentyabr 1911** – İngilis yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1983) Vilyam Cerald Qoldinq (William Gerald Golding; 1911-1993) anadan olub. Əsərləri: "Milçəklərin hökmdarı", "Sərbəst düşmə", "Varislər", "Piramida", "Görünən qaranlıq" və s.

**20 sentyabr 1878** – Amerika yazıçısı Epton Bill Sinkler (Upton Beall Sinclair; 1878-1968) anadan olub.

**20 sentyabr 1899** – Yəhudi əsilli Almaniya-Amerika filosofu və kulturoloqu Leo Ştraus (Leo Strauss; 1899-1973) anadan olub.

**Hazırladı: Vüqar Orxan**

# Arxaya baxmaq anı...

## Qrafika ustası Hüseyn Mirtəqəvinin yubiley portreti



Bu günlərdə anadan olmasının 70 illiyini qeyd edən tanınmış qrafika ustası Hüseyn Mirtəqəvini sənət aləminə az-çox bələd olanlar yaxşı tanıyırlar. Amma onun əsərlərinin vurğunu olanların çoxu bilmir ki, təsviri sənətə ekologiya sahəsindən gələn bu qeyri-adi istedad sahibi rəssamlıq sahəsində heç bir ixtisas təhsili almayıb. Elə biz də bu yazı-portretdə onun sənətinin bənzərsizliyinə aydınlıq gətirməklə, ərsəyə gətirdiyi unikal qrafika nümunələrini dəyərləndirməyə çalışacağıq...

Öncədən deyək ki, hazırda Azərbaycanda qrafikanın cizgi incəliyi ilə yanaşı, həm də icra mürəkkəbliyinə görə əlçatmaz görünən ksiloqrafiya texnikasında işləyən yalnız Hüseyn Mirtəqəvidir. Əgər təsviri sənət sahəsində çoxdan ənənəviləşmiş bədii-texniki vasitələrə hansısa əlavələr etməyin nə qədər çətin olduğunu etiraf etməli olsaq, onda ixtisas təhsili olmayan ekoloq-qrafikin təhsili professionallarla müqayisədə "həvəskar" kimi qəbul olunmağa məhkum olmasına baxmayaraq, əsərlərində çoxlarına ilk və nümunəvi görünə biləcək bədii-texniki yanaşma sərgilədiyini deməliyik.











Onun taxta səth üzərində cərrah bıçağı ilə ərsəyə gətirdiyi sənət nümunələri bədii tutumuna görə qədim tarixə malik olan ksiloqrafiya estetikası ilə səsləşsə də, özündə iki müxtəlif dəyər daşıyıcısını – təsviri və dekorativ-tətbiqi sənəti birləşdirdiyindən yeni və özünəməxsus nümunələr kimi qəbul olunurlar.

Etiraf edək ki, onun əsərlərinin orijinallarını görməyib, onlarla yalnız fotolar vasitəsilə tanış olanlar, heç şübhəsiz, gördüklərini səhvən ifadə xüsusiyyətlərinə görə qrafik əsər – klassik ksiloqrafiya texnikasında icra olunmuş sənət nümunəsi hesab edə də bilərlər. Bunu şərtləndirən səbəb görünənlərin ağ-qara rəngdə ifadə olunması, təsvirlərin çox incə cizgilərlə bədii tutum almasıdır. Amma onların orijinalları ilə tanışlıqdan sonra həmin ksiloqrafiya nümunələrinin kağız yox, ağac materialından "boylanan" görüntü olduğuna əmin olduqda bilavasitə əllə yaradılan bu bədii nümunələrin onun yaradıcısının yüksək sənətkarlığının nəticəsi olduğunu görürük. Odur ki, əminliklə "Hüseyn Mirtəqəvi ksiloqrafiyası"nın yeni və özünəməxsus estetikaya malik olduğunu söyləmək mümkündür. Doğrudan da, təsvirlərinin ümumi görüntüsü zərgər dəqiqliyi ilə müqayisə oluna biləcək bu ksiloqrafiyaların bədii dolğunluğunu şərtləndirən yüksək sənətkarlıq, heç şübhəsiz, onun müəllifinin fitri istedad sahibi olmasından xəbər verir.

Əlavə edək ki, əgər rəngkarlıq əsərlərində onun yaradıcısının icrada yola verdiyi rəsmetmə çatışmazlığının boyaların təsir gücü ilə ört-basdır edilməsi müəyyən qədər mümkün olsa da, qrafikada, o cümlədən də həyatını elmə və onun təbliğinə həsr etmiş Hüseyn Mirtəqəvinin mehrini saldığı ksiloqrafiyada bunu etmək, sadəcə, çox çətin, bəlkə də mümkünsüzdür. Bu mənada onun incə ekoloq duyumu ilə iti cərrah bıçağının hərəkətinə qibtəedici sürət vermək bacarığı heyranedicidir. Odur ki, onun çoxsaylı əsərlərdən ibarət bədii irsini qətiyyətlə Azərbaycan incəsənətinin dolğunluğu ilə birmənalı olan bədii-texniki saxlancına cəlbedici və yaddaqalan töhfə hesab etmək olar.

Klassik ksiloqrafiyalar zamanında rəssam, kəsici və çapçının birgə əməyi ilə yaradılırdısa, Hüseyn Mirtəqəvi isə bu gün bu üç nəfərin işini təkbaşına görür. Başqa sözlə desək, birbaşa ağac üzərində rəng və cərrah bıçağı ilə yaradılan əsərlərin çapına ehtiyac da qalmır. Müəllifin xüsusi məhlulla rənglənmiş ağac səthin üzərində açdığı "şırımlar" – cizgilər özünün incəliyinə görə şaşırdıcıdır desək, yanılmarıq...

Hüseyn Mirtəqəvinin yaratdığı obrazlar qalereyası çox zəngindir. Onların ümumi sayı iki yüzü ötmüşdür. Özünün "Avtoportret"indən başlanan bu obrazlar qalereyası işıqlı əməlləri ilə xalqımıza başucalığı gətirən məşhur şəxsiyyətlərin və ona ruhən yaxın olan ziyalıların obrazlarından ibarətdir. Burada kimlər yoxdur? Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Birinci vitse-prezident Mehriban xanım Əliyeva, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, görkəmli şərqşünas-alim Aida xanım İmanquliyeva, akademik Həsən Əliyev, Xalq şairi Fikrət Qoca, kinorejissor Ənvər Əbluc, görkəmli söz xiridarı Məhəmmədhüseyn Şəhriyar, məşhur memar Zaha Hadid, doktor Cavad Heyət, akademik Arif Paşayev, astrofizik Stiven Hokinq, 20 Yanvar şəhidi Ülvi Bünyadzadə və Vətən Müharibəsi Qəhrəmanı, general-mayor Polad Həşimov və digər məşhur şəxsiyyətlər, əqidə dostları. Müəllifin sadə peşə adamlarına ("Məhərrəm dayı", "Həmidə xala" və s.) rəğbətini əks etdirən əsərləri də səmimiliyi ilə yadda qalır...

Bu portretlərin bədii-texniki xüsusiyyətlərini incələməli olsaq, onda ikonqrafik dəqiqliyi şübhə doğurmayan portretləri həm də yüksək qrafik icra mədəniyyətinin səciyyələndirdiyini qeyd etməliyik. Yaddaqalan portret yaratmağın elə də asan olmamasının qarşılığında Hüseyn Mirtəqəvinin ağ-qara cizgilərdən "boylanan" və obrazlı tutum alması birmənalı olan əsərlərində bu janrın arzulanan bədii həllini, onun "estetik xəritəsi"ni duyulası dərəcədə genişləndirdiyini görmək mümkündür. Hiss olunur ki, müəllif işə başlamazdan əvvəl obrazına müraciət edəcəyi şəxslər barədə həm yazılı, həm də təsvirli zəngin məlumatlar toplamışdır.

Portretlər üçün poza seçiminin duyulası önəm kəsb etdiyini fəhmən hiss edən müəllifin bu istiqamətdə axtarışlarının da az vaxt apardığını ərsəyə gətirilən işlərin forma-biçim həllindən görmək mümkündür. Qəhrəmanına çevirdiyi hər bir şəxsin onun xarakterini əya biləcək səciyyəvi pozanın tapılmasını həyata keçirən yaradıcının bununla da tamaşaçısını təsvirin realllığına və səmimiliyinə inandıracağı birmənalıdır. Bu mənada müəllifin hər bir əsərində onun qəhrəmanına yanaşmasının özünəməxsusluğunu duymaq mümkündür.

Ksiloqrafiya ustasının Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya həsr etdiyi lövhələrdə obraza realist-gerçəkçi yanaşmanın kamilliyi birmənalı olan bədii nəticəsini görmək mümkündür.

Şərqşünas-alim Aida İmanquliyevanın portretində isə obrazın həyatsevərliyini onun yaradıcı fəaliyyəti ilə uğurla əlaqələndirən rəssam, obrazı sevimli məşğuliyyətindən bir anlığa ayrılmış durumda görüntüyə gətirmişdir. Eynəyini dodaqlarına sıxaraq kimsə cavab verən alimin çöhrəsinə hakim olan nikbinliyi qabardan rəssam bununla da obrazın səmimiliyinə nail olmuşdur. Onun portretin ətrafını təşkil edən ayrıntıları nisbətən tünd cizgilərlə təqdim etməsi ilə çöhrənin nurlu tutum almasına nail olması da müəllifin kompozisiya üçün uğurlu bədii həll tapmasını təsdiqləyir.

Rəssamın torpaqşünas-alim, akademik Həsən Əliyevə həsr etdiyi lövhə digərlərindən kompozisiyasının ayrıntı zənginliyinə görə seçilir. Elm adamının həyatının mənası hesab etdiyi ürəkaçan Azərbaycan təbiətinin fonunda təsvir edən müəllif obrazla təbiət motivi arasında çox məntiqli təsvir əlaqəsi yarada bilmişdir. Azərbaycanın fauna və florasını bir araya gətirməklə obrazın zənginliyini vurğulayan Hüseyn Mirtəqəvi son nəticədə obrazın cəlbediciliyinə və duyğulandırıcılığına nail olmuşdur. Həm portretin, həm də təbiət motivinin bədiiləşdirilməsində cizgi incəliyindən və oynaqlığından məharətlə istifadə edilməsi əsərin uğurunu şərtləndirmişdir.

Xalq şairi Fikrət Qocanın portretində də müəllif işıq-kölgə təzadından məntiqlə istifadə etməklə, söz adamının nikbin çalarların üstünlük təşkil etdiyi obrazını yaratmışdır. Şairin geyimini və fonu bir-birinə yaxın-yumşaq rəng çalarında həll edən rəssam, onun saçının və çöhrəsinin gerçəkləşməsində həm incə, həm də ekspressiv cizgilərdən istifadə etməklə gözoxşayan nikbin ruhlu əsərin yaranmasına nail olmuşdur.

Görkəmli söz ustası Məhəmmədhüseyn Şəhriyarın portretinin bir qədər fraqmentsayağı təqdimatı da məqsədlidir. Rəssam Azərbaycan həqiqətlərini dillər əzbəri olan misralarında ifadə edən şairin çöhrəsində hifz olunan yaşantılarını qabarıq göstərmək məqsədi daşımışdır. Kompozisiya boyu tətbiq olunan "cizgi oyunu" o qədər məntiqlidir ki, gözümüz önündə dərdlərimizə "bədii güzgü" tutan yaradıcının durduğuna inanırıq...

Orijinal biçimli Heydər Əliyev Mərkəzinin layihə müəllifi, məşhur memar Zaha Hadidin ayrıntı baxımından məhdudluğu duyulan portretində isə rəssam məşhur tikili ilə onun yaradıcısını bir araya gətirməklə memarın sənət dünyası ilə şəxsiyyəti arasında mənəvi əlaqə yaratmış, kompozisiyanın yaddaqalanlığını təmin etmişdir...

Hazırda Azərbaycan Milli Ensiklopediyası Elmi Mərkəzinin redaksiya müdiri vəzifəsində çalışan Hüseyn Mirtəqəvi ömrünün müdriklik çağını yaşasa da, əsərlərinin ümumi ruhunda cəlbedici bədii təravət duyulmaqdadır. Bunu onun yeni yaratdığı qrafik nümunələr də təsdiqləyir. Onun bu əsərlərinin də zamansızlığa qovuşacağı birmənalıdır. Belə ki, bilavasitə gördüklərinin harmoniyasını ifadə etmək zərurətindən yaranan əsərlərində rəssam bədii şərh tutumundan asılı olmayaraq çox səmimi və inandırıcıdır. İç dünyasının tələbatından ərsəyə gələn belə əsərlərin kənardan necə qəbul olunacağından da narahat deyil. Bu kredoya o, 70 yaşında – indiki arxaya baxmaq anının yetişdiyi gündə sadiqdir...

**Ziyadxan Əliyev**
**Əməkdar incəsənət xadimi, professor**

# Nigar Rəfibəylinin şeirləri Rusiya ədəbiyyat portalında

Rusiyanın "litprichal.ru" ədəbiyyat portalı Dövlət Tərcümə Mərkəzinin "Azərbaycan ədəbiyyatı beynəlxalq virtual aləmdə" layihəsi çərçivəsində Xalq şairi Nigar Rəfibəylinin rus dilinə tərcümə edilmiş "Neyləyim?", " Sevda kimiyəm", " Çiçəklər " şeirlərini dərc edib.

Dövlət Tərcümə Mərkəzindən bildirilib ki, şairin yaradıcılığı haqqında məlumatla təqdim olunan şeirləri rus dilinə tanınmış rusiyalı tərcüməçilər Mark Şexter və Vladimir Portnov çevirib.

Geniş oxucu auditoriyası tərəfindən izlənən "litprichal.ru" portalı mütəmadi olaraq səhifələrində müxtəlif ölkələrin tanınmış şairlərinin yaradıcılığına da yer ayırır.

# Türkiyədə "Mədəniyyyət Yolu Festivalları" davam edir

## Çanaqqalada başlayan növbəti mərhələ 10 gün sürəcək

Xəbər verdiyimiz kimi, Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin təşəbbüsü ilə müxtəlif şəhərləri əhatə edən "Mədəniyyət Yolu Festivalları" adlı layihə həyata keçirilir. Türkiyə mədəni turizm imkanlarının təbliğinə xidmət edən layihə 28 may – 12 iyun tarixlərində İstanbul ("Beyoğlu Mədəniyyət Yolu" və Ankarada ("Başkənd Mədəniyyət Yolu") gerçəkləşərək silsilə tədbirlər – sərgilər, konsertlər, təqdimatlarla yadda qalmışdı.

Sentyabrın 16-da layihə çərçivəsində "Troya Kültür Yolu Festivalı" başlayır. Tədbirlər Çanaqqala şəhərində start götürəcək və 10 gün ərzində ölkənin daha 5 şəhərini əhatə edəcək.

Türkiyə Mədəniyyət və Turizm Nazirliyindən verilən məlumata görə, beynəlxalq marka dəyərinə töhfə vermək məqsədilə keçirilən "Mədəniyyət Yolu Festivalları" çərçivəsində yarışmalar, sərgilər, konsertlər, film nümayişləri, marafonlar, seminarlardan ibarət 100-dən çox tədbir bir araya gətiriləcək. 40-dan çox məkanda keçiriləcək tədbirlərdə Troya, Lidiya, Roma, Osmanlı İmperatorluğu və Türkiyə Cümhuriyyətinin izlərini daşıyan Çanaqqalanın tarixi-mədəni irsi geniş şəkildə təqdim ediləcək.




Qeyd edək ki, bu layihə ilk dəfə ötən il İstanbulun Beyoğlu rayonunda təşkil olunmuşdu. 2021-ci il oktyabrın 29-da Beyoğlunda şəhərin ən böyük mədəniyyət və sənət məkanı – Atatürk Mədəniyyət Mərkəzinin açılışı ilə 29 oktyabr – 14 noyabr tarixlərini əhatə edən "Beyoğlu Mədəniyyət Yolu" festivalı gerçəkləşmişdi.

Bu il isə festivalın ölkə miqyasında keçirilməsi və bunun ənənəyə çevrilməsi qərara alınıb.

**Mehparə Sultanova**
**Ankara**

# Mədəniyyət siyasətləri və davamlı inkişaf

## Meksikada UNESCO-nun Dünya Konfransı keçiriləcək

Sentyabrın 28-dən 30-dək Meksikada UNESCO-nun "MONDİACULT-2022" Mədəniyyət Siyasətləri və Davamlı İnkişaf üzrə Dünya Konfransı keçiriləcək.

40 il əvvəl, 1982-ci ildə Meksikada keçirilmiş "MONDİACULT" konfransına yenidən bu ölkə ev sahibliyi edəcək. "MONDİACULT-2022" konfransına 100-dən artıq ölkədən mədəniyyət nazirləri və digər rəsmilərin, BMT institutları, vətəndaş cəmiyyəti təşkilatları təmsilçilərinin qatılacağı gözlənilir.

Beynəlxalq ictimaiyyət tərəfindən arzu olunan yol xəritəsi kimi razılaşdırılmış BMT Davamlı İnkişaf Məqsədlərinin (2030) həyata keçirilməsində sonuncu onilliyə qədəm qoyulduğu vaxtda qlobal çağırışların öhdəsindən gəlmək və yaxın gələcək prioritetləri müəyyən etmək üçün UNESCO üzv dövlətləri davamlı mədəniyyət siyasəti haqqında düşünməyə dəvət edir. Məqsəd davamlı inkişaf perspektivlərinə, eləcə də həmrəylik, sülh və təhlükəsizliyin təşviqinə tam uyğunlaşdırılmış daha dayanıqlı və davamlı mədəniyyət sektorunu formalaşdırmaqdır.

# "Memarlıq incəsənət kimi"

Sankt-Peterburq Dövlət Tarix Muzeyində III Beynəlxalq "Memarlıq incəsənət kimi" sərgisi açılıb. Ekspozisiyada "Qızıl Trezini-2021" müsabiqəsi qaliblərinin əsərləri nümayiş etdirilir.



"Qızıl Trezini" beynəlxalq mükafatı hər il memarlıq, dizayn, bərpaçılıq və muzey işi sahəsində fərqlənən layihələrə görə təqdim olunur.

Azərbaycanın Sankt-Peterburqdakı baş konsulu Sultan Qasımov sərginin açılışında çıxış edib. Diplomat Azərbaycan və Rusiya mədəniyyət və incəsənət xadimləri arasında əməkdaşlıqdan söhbət açıb.

Tədbirdə Sankt-Peterburq Dövlət Tarix Muzeyinin baş direktoru Vladimir Kirilov, İsrailin Sankt-Peterburqdakı baş konsulu Uri Reznik, Rusiya Milli Kitabxanasının baş direktoru Vladimir Qronski və başqaları çıxış ediblər.

Sərgidə 14 ölkədən (Braziliya, Britaniya, İsrail, Hindistan, İtaliya, İspaniya və s.) layihələr yer alıb.

# Sarayevoda sənədli filmlər festivalı başa çatıb

9-13 sentyabr tarixində Bosniya və Herseqovinanın paytaxtı Sarayevoda V Beynəlxalq Sənədli Filmlər Festivalı keçirilib.




Bu il "Ağ göyərçin" şüarı ilə keçirilən festivalda insan və həyat hekayələrindən bəhs edən filmlər nümayiş olunub. Münsiflər heyətinin qərarına əsasən, baş mükafat Çili rejissoru Qorki Qlazer Müllerin "Düşmənin uşaqları" sənədli filminə verilib. Sənədli film 7 nəvəsini həbsdə olduqları İŞİD terror təşkilatının Suriyadakı düşərgəsindən xilas etməyə çalışan bir adamın hekayəsindən bəhs edir.

Julie Bezerra Madsenin (Danimarka) "Görməli hər şey" sənədli filmi isə münsiflər heyətinin xüsusi mükafatına layiq görülüb.

# Roma Papası: "Ümumi evimizi birlikdə qorumalıyıq"

Roma Papası Fransisk 14-15 sentyabr tarixində Qazaxıstanın paytaxtında keçirilən Dünya və Ənənəvi Din Liderlərin VII Konqresində iştirak edib.




Konqres "Dünya və ənənəvi din liderlərinin postpandemiya dövründə bəşəriyyətin mənəvi və sosial inkişafında rolu" mövzusuna həsr olunub.

Papa Fransisk konqresdə çıxışı zamanı iqlim dəyişikliyinin doğurduğu problemlərə toxunub. "Qarşımızda ümumi evimizi qorumaq kimi daha bir problem dayanır. Ciddi iqlim dəyişikliyi şəraitində onu qorumalı, gələcək nəsillər üçün saxlamalı, onun çirklənməsinə və məhvinə imkan verməməliyik. Gəlin, bu problemi birlikdə həll edək", - deyə o bildirib.

Roma Papası qeyd edib ki, dünyanın yaşadığı pandemiya da iqlim dəyişikliyi ilə əlaqəlidir. "Meşələrin vəhşicəsinə qırılması, heyvanların qanunsuz ticarəti kimi məsələlər üzərində düşünək. İstismarçı təfəkkür ümumi evimizi məhv edir", - deyə Fransisk əlavə edib.

Dünya din liderlərinin toplantısında Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə də iştirak edib.

# Astana adını geri qaytarır

Üç il əvvəl Nur-Sultan adı verilən Qazaxıstan paytaxtının əvvəlki adının (Astana) qaytarılması ilə bağlı proses başlanıb. Bununla bağlı müvafiq müddəa Prezident Kasım-Jomart Tokayevin razılığı ilə konstitusiya dəyişiklikləri haqqında qanun layihəsinə daxil edilib.

Bu barədə Prezidentin mətbuat katibi Ruslan Jeldibay bildirib. O, diqqətə çatdırıb ki, parlamentin bir qrup deputatı Astananın keçmiş adının qaytarılmasını təklif edib. Əhalinin çoxsaylı müraciətlərinə əsaslanan təşəbbüslə bağlı dövlət başçısına məlumat verilib. Deputatların təklifi dövlət başçısının razılığı ilə konstitusiya qanunu layihəsinə daxil edilib.

Mətbuat katibinin sözlərinə görə, Kasım-Jomart Tokayev eyni zamanda hesab edir ki, Qazaxıstanın ilk Prezidenti Nursultan Nazarbayevin adını daşıyan digər obyektlərin adları saxlanılmalıdır. "Prezident Qazaxıstanın müasir dövlətçiliyinin möhkəmlənməsində və paytaxtın formalaşmasında Nursultan Nazarbayevin həlledici rolunu tarixi fakt kimi qiymətləndirir", - deyə o əlavə edib.



Sentyabrın 15-də Qazaxıstan paytaxtının Məslihatı Nur-Sultan şəhərinin yenidən Astana adlandırılmasına səs verib. Şəhər deputatları bu barədə növbədənkənar sessiyada qərar veriblər. Qərarın Qazaxıstan Hökuməti yanında Onomastik komissiyaya təqdim olunacağı vurğulanıb.

Yeri gəlmişkən, düz 27 il əvvəl, 15 sentyabr 1995-ci ildə Qazaxıstan Prezidenti Nursultan Nazarbayev ölkənin paytaxtının Almatıdan tarixi Akmola şəhərinə köçürülməsi barədə fərman verib. Qədim kurqanların olduğu bu məkanda (Akmola – "ağ məzar") qala-şəhər XIX əsrdə inşa edilib. Çar və sovet dövründə Akmolinsk adlanan şəhər bir müddət – 1961-ci ildən 1992-ci ilədək Selinoqrad adını da daşıyıb. 1997-ci ildə Nazarbayevin təşəbbüsü ilə Astana (qazaxca "paytaxt") adı verilən şəhər Qazaxıstanın yeni paytaxtı olub.

**V.Kamal**

Xronoqraf

# Tarixdə bu gün

## Zamanın səhifələrində qalan olaylar, faktlar...

### 235 il əvvəl...

**17 sentyabr 1787-ci ildə** Filadelfiyada ABŞ Konstitusiyasının yeni redaksiyası təsdiq edilib. ABŞ müstəqil ştatların birliyindən federativ dövlətə çevrilib. Prezidentlik müddəti 4 il müəyyənləşib. Ali qanunverici orqan olan konqresdə iki palata – Senat və Nümayəndələr palataları yaradılıb.

### 212 il əvvəl...

**18 sentyabr 1810-cu ildə** Cənubi Amerikada İspaniya müstəmləkəçiliyinə qarşı müharibədə (1810-1826) ilk olaraq Çili müstəqilliyini elan edib. Sakit okeanla And dağları arasında, şimaldan cənuba təxminən 6500 km, şərqdən qərbə 400 km zolaqda yerləşən Çili dünyada ən maraqlı coğrafi mövqeyə malik ölkələrdəndir.

### 195 il əvvəl...

**20 sentyabr 1827-ci il** Rusiya-İran müharibəsi gedişində general İvan Paskeviçin başçılıq etdiyi rus qoşunları İrəvan xanlığının strateji əhəmiyyətli Sərdarabad qalasını ələ keçiriblər. Sərdarabad Ermənistan sovetləşəndən sonra eyniadlı rayonun mərkəzi olub. 1932-ci ildə Oktemberyan, 1992-ci ildə Armavir adlandırılıb.

### 152 il əvvəl...

**20 sentyabr 1870-ci ildə** Cüzeppe Haribaldinin rəhbərliyi ilə İtaliyanın birləşdirilməsi başa çatıb. Roma İtaliyanın paytaxtı elan edilib. Lakin Vatikan (Roma Papası) bununla razılaşmadı və 1929-cu ilədək onun İtaliya ilə münasibətləri açıq qaldı. Həmin il şəhərdə 0,44 kv km əraziyə malik Vatikanın dövlət statusu müəyyənləşdi və o, İtaliya ilə diplomatik münasibətlər qurdu.

### 104 il əvvəl...



**17 sentyabr 1918-ci ildə** Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti üç ay fəaliyyət göstərdiyi Gəncədən Bakıya köçüb. Fətəli xan Xoyskinin rəhbərlik etdiyi Nazirlər Şurası Bakıda verdiyi ilk bəyanatda Cümhuriyyət hökumətinin milli, dini ayrı-seçkilik etmədən ölkənin bütün əhalisinin hüquqlarını qoruyacağını bəyan edib.

### 98 il əvvəl...

**20 sentyabr 1924-cü ildə** İraqın şimalında Kərkük türklərinin yaşadığı və neftlə zəngin olan Mosul bölgəsi ilə bağlı məsələ Millətlər Liqasının müzakirəsinə verilib. O vaxt İraq Britaniyanın protektoratlığında idi, Mosula isə Türkiyə iddia edirdi. Millətlər Liqası Britaniyanın istədiyi qərarı çıxardı və Mosul İraqın tərkibində (ingilislərin nəzarətində) qaldı.

### 83 il əvvəl...

**17 sentyabr 1939-cu ildə** sovet qoşunları Polşa sərhədini keçərək Qərbi Belarus və Qərbi Ukrayna torpaqları hesab edilən ərazilərin SSRİ-yə birləşdirilməsi üçün əməliyyata başlayıb. Bu barədə razılıq həmin il avqustun 23-də SSRİ ilə Almaniya arasında imzalanmış sazişdə ("Molotov-Ribbentrop paktı") əldə olunmuşdu. SSRİ Polşanın şərqini, Almaniya isə qalan hissəsini işğal etdi.

### 44 il əvvəl...

**17 sentyabr 1978-ci ildə** Vaşinqtonda ABŞ Prezidenti Cimmi Karterin vasitəçiliyi ilə Misir-İsrail danışıqları sülh sazişi ilə yekunlaşıb. Prezident Ənvər Sədat və Baş nazir Menahem Beqinin imzaladığı sazişə əsasən, İsrail 1973-cü ildə işğal etdiyi Sinay yarımadasını azad edib, Misir İsrail gəmilərinin Süveyş kanalında hərəkətinə icazə verib. Fələstin məsələsi kənarda qaldığı üçün ərəb dövlətləri Misirin addımını satqınlıq kimi qiymətləndirdilər. 1981-ci ildə Ə.Sədat terror aktı nəticəsində qətlə yetirildi.

### 33 il əvvəl...

**16 sentyabr 1989-cu ildə** Tbilisi-Bakı marşrutu ilə hərəkət edən sərnişin avtobusunun ermənilər tərəfindən partladılması nəticəsində 5 nəfər həlak olub, 25 nəfər yaralanıb.

### 28 il əvvəl...

**20 sentyabr 1994-cü ildə** Bakıda, "Gülüstan" sarayında Xəzər dənizinin Azərbaycan sektorundakı "Azəri", "Çıraq" və "Günəşli" neft yataqlarının işlənməsinə dair beynəlxalq kontrakt imzalanıb. "Əsrin müqaviləsi" ilə Azərbaycanın yeni neft strategiyasının əsası qoyulub. Prezident Heydər Əliyevin fərmanı ilə 20 sentyabr "Neftçilər günü" kimi qeyd olunur.

### 20 il əvvəl...




**18 sentyabr 2002-ci ildə** Səngəçal terminalında Bakı-Tbilisi-Ceyhan boru kəmərinin təməlatma mərasimi keçirilib. Mərasimdə Azərbaycan, Türkiyə və Gürcüstan prezidentləri Heydər Əliyev, Əhməd Necdət Sezər və Eduard Şevardnadze, ABŞ-ın energetika naziri Spenser Abraham iştirak ediblər. Kəmərin inşası 2006-cı ilin yazında başa çatdı, rəsmi açılışı 2006-cı il iyulun 13-də gerçəkləşdi.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5072. **Sifariş:** 2648
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641